HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 25 (816) ■ 29 iyun 2016 | www.vergiler.az | Qiyməti: 55 qəp.

# Prezident İlham Əliyev: «Azərbaycan dövləti öz prinsipial mövqeyindən heç bir halda əl çəkməyəcək»

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 25-də Bakının Xətai rayonunda hərbçilər üçün inşa edilmiş yaşayış binasında yaradılan şəraitlə tanış olub.

Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov dövlətimizin başçısına bina haqqında məlumat veriblər. Bildirilib ki, 14 mərtəbəli yeni binada ümumilikdə 65 mənzil var, onlardan 39-u ikiotaqlı, 26-sı isə üçotaqlıdır. İkiotaqlı mənzillərin sahəsi 91, üçotaqlı mənzillərin sahəsi isə 100 kvadratmetrdir. Binada sərnişin və yük liftləri quraşdırılıb. Domofon, yanğınsöndürmə, siqnalizasiya, havalandırma və kombi sistemləri ilə təmin olunan mənzillərə telefon, internet, televiziya xətləri çəkilib. Təbii qazla təchiz olunan binanın həyətində yanğın və içməli su anbarları inşa edilib, idman avadanlıqları qoyulub, yaşıllıq zolağı salınıb, işıqlandırma sistemi quraşdırılıb. Binanı daimi su ilə təchiz edən nasos stansiyası və zirzəmidə müasir avtomobil dayanacağı yaradılıb.

Sonra dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev hərbçilərlə görüşüb. Tədbir iştirakçılarını və bütün Azərbaycan xalqını qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə təbrik edən dövlətimizin başçısı bildirib ki, hərbi qulluqçuların mənzil-məişət problemləri uğurla həll edilir: «Hərbçilərin xidmət şəraiti də yaxşılaşır. Bu gün Azərbaycanın müxtəlif ərazilərində yerləşən hərbi hissələrdə, hərbi şəhərciklərdə müvafiq göstərişlər əsasında təmir-bərpa işləri aparılır, yeni hərbi bazalar tikilir. Keçən il biz Silahlı Qüvvələr Günü ərəfəsində Hərbi Dəniz Qüvvələrinin Bakıda, Xəzər sahilində tikilmiş bazasının açılışını qeyd etmişdik. Bu baza Xəzərdə ən böyük hərbi obyektlərdən biridir və orada bütün şərait yaradılıbdır. Eyni zamanda, bütün digər hərbi hissələrdə təmir-bərpa işləri aparılır və qarşıya vəzifə qoymuşam ki, bir dənə də təmirsiz hərbi hissə olmasın. Hərbçilərin yaşayış və xidmət şəraiti yaxşı olmalıdır. Azərbaycanda ordu quruculuğu prosesi məqsədyönlü və planlı şəkildə aparılır, görülən işlər də göz qabağındadır. Bununla paralel olaraq, Azərbaycanda hərbi-sənaye kompleksi yaradılıb və mindən çox adda hərbi təyinatlı məhsul istehsal edilir. Bu, həm ordumuzun ehtiyacını ödəyir, eyni zamanda, biz artıq xarici bazarlara da çıxmışıq. Ordu quruculuğu prosesi, təbii ki, təkcə maddi-texniki təminatla məhdudlaşmır. Döyüş qabiliyyəti, əsgər-zabit heyətinin mənəvi-psixoloji durumu mühüm yer tutur. Mən tam əminliklə deyə bilərəm ki, bu baxımdan Azərbaycan Ordusu güclü ordular sırasındadır. Döyüş qabiliyyəti artır, orduda mənəvi-psixoloji vəziyyət çox müsbətdir, vətənpərvərlik ruhu, nizam-intizam yüksək səviyyədədir. Əlbəttə, bütün bu amillər bizim hərbi gücümüzü daha da artırır. Mən son illər ərzində dəfələrlə qeyd etmişəm ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və aprel döyüşləri bunu bir daha sübut etdi. Bütün dünyaya sübut etdi ki, bu gün Azərbaycanla hesablaşmaq lazımdır».

Prezident İlham Əliyev hərbçilərlə görüşündə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sülh danışıqları barədə də fikirlərini söyləyib: «Bildiyiniz kimi, Ermənistan danışıqlar prosesini pozmaq və danışıqlar prosesinə zərbə vurmaq üçün aprel ayında bizə qarşı silahlı təxribata əl atdı. Bizim mövqelərimiz atəş altına düşdü. Mülki vətəndaşlara qarşı silahdan istifadə edildi və 6 mülki şəxs erməni təxribatı nəticəsində həlak oldu. Hərbçilərimiz həlak oldular, yaralandılar. Təbii ki, Azərbaycan düşmənə layiqli cavab verməli idi və verdi. Aprel döyüşləri, - mən bunu artıq demişəm, - tarixdə bizim böyük hərbi qələbəmiz kimi qalacaqdır. Azərbaycan Ordusu böyük qəhrəmanlıq göstərib, işğal edilmiş torpaqların bir hissəsini, daha dəqiq desəm, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad edib və strateji yüksəklikləri öz nəzarəti altına qaytarıbdır.



Əminəm ki, bu hadisələr həm Ermənistana, həm də bu məsələ ilə məşğul olanlara ciddi siqnal oldu. Çünki Ermənistanın istəyi sirr deyil. Onlar bu prosesi sonsuz proses kimi görmək, status-kvonu saxlamaq istəyirlər. Görəndə ki, onlara qarşı beynəlxalq vasitəçilər tərəfindən təzyiq artır, müxtəlif təxribatlara əl atırlar. Məsələn, 2014-cü ilin noyabrında bizə qarşı silahlı təxribat törətdilər və biz layiqli cavab verəndən sonra bundan istifadə edərək, bunu bəhanə gətirərək Ermənistan danışıqları demək olar ki, dondurmuşdu. 2014-cü ilin noyabrından 2015-ci ilin dekabrına qədər demək olar ki, heç bir danışıq aparılmırdı. 2015-ci ilin dekabrında Ermənistan və Azərbaycan prezidentlərinin görüşü formal xarakter daşıyırdı. Görəndə ki, bu il onlara vasitəçilər tərəfindən siyasi təzyiq artır, növbəti silahlı təxribata əl atdılar. Amma əminəm ki, indi bunun acısını çəkirlər.

Münaqişə tezliklə həll olunmalıdır, beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur, ola da bilməz. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. BMT Təhlükəsizlik Şurası bu məsələ ilə bağlı 4 qətnamə qəbul edibdir. BMT Təhlükəsizlik Şurasından daha ali beynəlxalq orqan yoxdur və bu qətnamələrdə göstərilir ki, erməni silahlı birləşmələri dərhal və qeyd-şərtsiz bizim torpaqlarımızdan çıxarılmalıdır və çıxarılacaqdır. Heç vaxt Azərbaycan dövləti öz tarixi torpaqlarında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək və bu, danışıqlar mövzusu deyil, heç vaxt olmamışdır. Məsələ mərhələli yolla öz həllini tapa bilər və əminəm ki, biz məsələni bu yolla həll edə bilərik. Ancaq əlbəttə ki, burada işğalçı Ermənistana beynəlxalq vasitəçilər və geniş mənada beynəlxalq birlik tərəfindən daha da ciddi təzyiq göstərilməlidir.

Bildiyiniz kimi, aprel hadisələrindən sonra Ermənistan rəhbərliyi danışıqları davam etdirmək üçün bir neçə şərt irəli sürmüşdür. Onların heç biri, təbii ki, qəbul oluna bilməz. Çünki bizə heç kim şərt qoya bilməz. Danışıqları aparmaq bizə göstərilən minnət deyil. Ermənistan tərəfi yaxşı başa düşür ki, əgər danışıqlar dondurulsa, ya pozulsa onları nələr gözləyir. Ona görə, təbii ki, Ermənistan tərəfi danışıqlara heç bir şərt qəbul etmədən qoşulmuşdur. Vyana görüşü Amerika Birləşmiş Ştatlarının təşəbbüsü ilə keçirilmişdir. Hesab edirəm ki, Vyana görüşünün müsbət nəticələri olmuşdur. Yəni, Ermənistan tərəfinin qoyduğu şərtlər qəbul edilmədi. Azərbaycan tərəfi Vyanada hər hansı bir sənədə imza atmadı. Sadəcə olaraq, həmsədr ölkələr öz bəyanatını verdilər, bu, onların bəyanatıdır».

Prezident İlham Əliyev bu günlərdə Sankt-Peterburqda keçirilən görüşün bəzi detallarına toxunub: «Sankt-Peterburq görüşünün nəticəsi olaraq birgə bəyannamə qəbul edilmişdir. O da ictimaiyyət üçün təqdim edildi. O bəyannamədə hər şey, xüsusilə, məsələnin həlli yolları göstərilir. Bununla bərabər, ATƏT sədrinin şəxsi nümayəndəsinin ofisinin işçilərinin say tərkibinin artırılması məsələsi də müzakirə edilmişdir. Düzdür, orada say göstərilmir. Ancaq mən deyə bilərəm ki, əgər bu gün o ofisdə 6 nəfər işləyirsə, bu, maksimum 2 dəfə, 2,5 dəfə artırıla bilər. Yəni, burada böyük missiyadan söhbət getmir. Nəzərə alsaq ki, təmas xətti on kilometrlərlə ölçülür, bu işlərin başqa mənasını axtarmaq lazım deyil. Ofisin mandatı da yerindədir, heç bir dəyişiklik yoxdur. Sadəcə olaraq, 6 nəfərin əvəzinə 12, ya 13, ya 14 nəfər olacaqdır, vəssalam.

O ki qaldı ermənilərin şərt kimi ortaya qoyduqları insidentlərin araşdırılması mexanizminin tətbiqinə, hesab edirəm ki, buna indiki mərhələdə ehtiyac yoxdur. Birincisi, bu mexanizmlər yoxdur. Bizə heç kim konkret demir ki, bu, nədən ibarət olacaqdır. Belə olan halda, bu məsələyə bu gün baxmaq düzgün olmazdı. İkincisi, bunun mənası nədən ibarətdir. Əgər bunun mənası ondan ibarətdir ki, münaqişə dondurulsun və təmas xəttində hansısa əlavə tədbirlər görülsün, əlbəttə, Azərbaycan buna getməyəcək. Bu, o vaxt ola bilər ki, danışıqlar prosesində müsbət dinamika davam etdirilsin, biz konkret nəticələri görək, bilək ki, nə vaxt bizim torpaqlarımız işğaldan azad olunacaq, onda əlbəttə, müxtəlif mexanizmlər işlənə və o vaxt bu məsələyə baxıla bilər».

Azərbaycan dövlətinin məsələnin həlli ilə bağlı prinsipial mövqeyi ortada olduğunu deyən ölkə başçısı bu mövqedə heç bir dəyişikliyin olmayacağını, məsələnin yalnız ərazi bütövlüyü çərçivəsində öz həllini tapacağını vurğulayıb: «Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək, heç vaxt Azərbaycanın tarixi torpaqlarında ikinci erməni dövləti yaranmayacaq. Bu, əsas məsələdir. O ki qaldı Dağlıq Qarabağın statusuna, bu, sonranın işidir. Əlbəttə ki, müəyyən status ola bilər. Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikası mövcuddur. Bunun muxtariyyət statusu var. Avropada, digər ölkələrdə mütərəqqi təcrübə və müxtəlif statuslar var. Ancaq bu status ölkəmizin ərazi bütövlüyünü pozmamalıdır.

Bir məqamı da qeyd etmək istəyirəm ki, həm 2008-ci ildə Rusiya, Azərbaycan, Ermənistan prezidentlərinin imzaladıqları sənəddə, - ona «Mayn Dorf» bəyannaməsi deyirlər, - həm də bu ay Sankt-Peterburqda qəbul edilmiş bəyanatda Helsinki Yekun Aktına istinad edilir. Ermənistan tərəfi getsin Helsinki Yekun Aktını diqqətlə oxusun. Orada prinsiplər açıq-aydın göstərilir və ərazi bütövlüyü prinsipi üstünlük təşkil edir. Düzdür, orada xalqların öz müqəddəratını müəyyənetmə prinsipi də var. Amma birincisi, erməni xalqı öz müqəddəratını müəyyən edib, onların Ermənistan dövləti var. Baxmayaraq ki, o dövlət də tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. İkincisi, xalqların müqəddəratını təyinetmə, müəyyənetmə prinsipi ölkələrin ərazi bütövlüyünü pozmamalıdır. Bu, beynəlxalq prinsiplərdir və hər bir ölkə buna riayət etməlidir.

Biz ordu quruculuğuna bundan sonra da ciddi diqqət yetirəcəyik. Bu məsələ - ordu quruculuğu prosesi həmişə prioritet olaraq qalacaq. Azərbaycan Ordusu bu gün istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Ordu quruculuğunun ölkəmizin müstəqillik illərində belə sürətlə inkişafı, əlbəttə ki, hər bir Azərbaycan vətəndaşını sevindirir. Biz fəxr edirik ki, bizim güclü ordumuz var. Mən dəfələrlə demişəm ki, Azərbaycan güclü dövlətdir və Azərbaycanın güclü ordusu var».

Sonra Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbçilərin bir qrupuna mənzillərin açarlarını və müqavilələrini təqdim edib.

# Azərbaycan Ordusu ən müasir avadanlıqlarla təchiz olunub

İyunun 25-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrin Baş Qərargahının yeni inzibati binasının açılışında iştirak edib. Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Ali Baş Komandana raport verib. Binanın rəmzi açılışını bildirən lenti kəsdikdən sonra dövlətimizin başçısı burada yaradılan şəraitlə tanış olub.

Bildirilib ki, Silahlı Qüvvələrin gündəlik və döyüş fəaliyyətinin planlaşdırılması və idarə olunması üçün yaradılan Mərkəzi Komanda Məntəqəsində 140 nəfərin işləməsi üçün hər cür şərait var. Məntəqəyə hərbi idarəetmə sisteminin müxtəlif elementləri daxildir. Bildirilib ki, Mərkəzi Komanda Məntəqəsi əməliyyat şəraiti barədə məlumatların toplanmasına və təhlilinə, qoşunların döyüşə hazırlıq prosesinə, döyüş xidmətinin aparılmasına nəzarət edilməsinə, döyüş fəaliyyətinə hazırlıq dövründə və onun gedişində qoşunların idarə olunmasına, digər idarəetmə məntəqələri ilə müxtəlif növ məlumat mübadiləsinin aparılmasına və videokonfransların təşkilinə, videoməlumatların ötürülməsinə imkan verir.



Sonra düşmən müdafiəsinin dərinliyində hava kəşfiyyatı aparan pilotsuz uçuş aparatından və aerostatdan alınan görüntülər nümayiş etdirilib, əsas komanda məntəqələri ilə birbaşa videobağlantılar qurulub. Müxtəlif ordu korpuslarının və birliklərinin komandirləri videobağlantı vasitəsilə Prezident, Ali Baş Komandan İlham Əliyevə raport veriblər. Sonda Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev müxtəlif təyinatlı zirehli döyüş maşınlarına baxıb. Bu maşınların funksiyaları və imkanları barədə dövlətimizin başçısına ətraflı məlumat verilib.

BU NÖMRƏMİZDƏ

VERGİ BORCLARINA GÖRƏ QADAĞALARDA YENİLİK 2

AZƏRBAYCANDA «TAX FREE» SİSTEMİNİN TƏTBİQİNƏ BAŞLANILIR 3

İPOTEKA MEXANİZMİ BEYNƏLXALQ STANDARTLARA UYĞUNLAŞDIRILIR 4

BƏLƏDİYYƏ VERGİLƏRİNİN ÖDƏNİLMƏ VAXTI YAXINLAŞIR 5

# Vergi borclarına görə qadağalarda yenilik

**Prezident İlham Əliyev «Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə»də dəyişikliklər edilməsi barədə fərman imzalayıb. Sənədə əsasən, vergi ödəyicisi öz vergi öhdəliyini Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, Vergilər Nazirliyi hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üsulu kimi vergi ödəyicisi olan fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üçün məhkəməyə müraciət edəcək.**

Məlum olduğu kimi, vergi borclarının alınması mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə Vergi Məcəlləsinə dəyişikliklər edilib. 2016-cı il yanvarın 1-dən qüvvəyə minən «Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi barədə» Qanuna əsasən, hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsinin təmin edilməsi üsulu kimi vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəməyə müraciət etmək vergi orqanlarının hüquqlarına aid edilib. Eyni zamanda, Miqrasiya Məcəlləsində edilən dəyişikliklərə əsasən, istər Azərbaycan Respublikasının vətəndaşının, istərsə də əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin vergi borcu olduğu halda, vergi orqanlarının müraciətlərinə əsasən məhkəmə qərarı ilə onların ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılır. Bununla yanaşı, qeyd olunan məsələ ilə əlaqədar məhkəmələrdə vergi orqanlarının müraciətlərinə baxılması qaydasını və mexanizmini tənzimləmək məqsədilə Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsində də müvafiq dəyişikliklər edilib. Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında vergi orqanı tərəfindən məhkəməyə təqdim olunmuş ərizəyə məhkəmə tərəfindən 10 gün müddətində baxılır. Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verməlidir. İşə baxılma vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş işdə maraqlı olan şəxslərin məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur. Lakin işdə maraqlı olan şəxslər üzrlü səbəblərdən gəlmədiyi hallarda, məhkəmə işin baxılmasını təxirə salır. İşə mahiyyəti üzrə baxan hakim ərizənin rədd edilməsi və ya təmin olunması barədə qətnamə qəbul edir. Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında qətnamə qəbul edildikdən dərhal sonra qətnamə qüvvəyə minir və bununla bağlı şikayət verilməsi onun icrasını dayandırmır.

Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında ərizə məhkəmə tərəfindən təmin edilərək müvafiq qətnamə qəbul olunduqdan sonra ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasına səbəb olmuş əsaslar aradan qalxdıqda vergi orqanı müvafiq ərizə ilə məhkəməyə müraciət edir və məhkəmə tərəfindən iki iş günü ərzində həmin məhdudlaşdırmanın götürülməsi barədə qətnamə qəbul edilir. «İcra haqqında» Qanuna əsasən, hazırda məhkəmə qərarları əsasında verilmiş icra sənədləri könüllü icra üçün müəyyən olunmuş vaxtda borclu tərəfindən üzrsüz səbəbdən icra edilmədikdə, borclunun ölkədən getmək hüququ icra məmurunun əsaslandırılmış təqdimatı əsasında məhkəmənin qərarı ilə müvəqqəti məhdudlaşdırıla bilər. Bu qanuna edilmiş dəyişikliyə əsasən, borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasının məhkəmə qərarları əsasında verilmiş icra sənədləri ilə yanaşı, həm də vergi orqanlarının pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktları əsasında verilmiş icra sənədləri əsasında da həyata keçirilə bilər.

Xatırladaq ki, əvvəllər yalnız fiziki şəxslərin ölkədən getmək hüququ məhdudlaşdırıldığından, əksər hallarda onlardan dəfələrlə çox vergi borcu olan hüquqi şəxslərin rəhbərləri büdcədən yayındırdıqları vəsaitləri xaricdə rahatlıqla xərcləyir, istədiklərini edə bilirdilər. Məcəlləyə edilmiş dəyişiklikdən sonra bu ədalətsizliyin də qarşısı alınıb.

Onu da qeyd edək ki, Ədliyyə Nazirliyinin istifadəyə verdiyi yeni elektron xidmət sayəsində Azərbaycan vətəndaşları ölkədən xaricə çıxışlarına qadağa qoyulub-qoyulmadığını öyrənə biləcəklər. «Borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məlumatın verilməsi» adlanan yeni xidmətə əsasən, vətəndaşlar öz şəxsiyyət vəsiqələrinin göstəricilərini daxil etməklə adlarının ölkədən çıxışına qadağa qoyulanlar arasında olub-olmadığı barədə məlumat alacaqlar.

Bu xidmətlə yanaşı, Ədliyyə Nazirliyi tərəfindən məhkəmə qərarlarının icra edilməməsinə və ya vergini ödəməkdən yayınmaya görə ölkədən çıxışa qadağa qoyulması qaydalarında da yeniliklər edilib. «Şəxsin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasının icra xidməti tərəfindən tətbiqi qaydaları haqqında Təlimat»a əsasən, öhdəliklərinə əməl etməyən vətəndaşların ölkədən çıxışı ilə bağlı indiyədək mövcud olmuş mübahisəli məsələlər dəqiqləşdirilib. Yeni dəyişikliyə görə, məhkəmə qərarı aidiyyəti şəxsə ya icra məmurunun özü tərəfindən, ya da müəyyən olunmuş qaydada sifarişli poçt göndərişi ilə rabitə orqanları tərəfindən borclunun yaşadığı ünvana və ya onun işlədiyi yer üzrə çatdırılmalıdır. Bu dəyişiklik nəticəsində artıq bütün borclular özləri barədə verilən qərardan xəbərdar olacaqlar. Bundan başqa, dəyişikliklərə əsasən, əgər borclu yaşadığı və ya işlədiyi yerdə tapılmırsa, icra bildirişi borclunun yaşadığı evdə yetkinlik yaşına çatmış istənilən şəxsə təqdim edilə bilər. Belə şəxs olmadıqda icra bildirişi borclunun yaşadığı ərazinin icra hakimiyyətinə və ya bələdiyyəyə çatdırılır. Nəhayət, bildirişlər borclunun iş yerində müdiriyyətə də çatdırılır. Bununla da borclu şəxs borcu barədə çıxarılmış qərardan xəbərsiz olması barədə bəhanə gətirə bilməyəcək.

Təlimatda digər mühüm yenilik isə mülkiyyətində əmlak olan şəxslərin xaricə çıxışına qadağa qoyulması ilə bağlıdır. Dəyişikliyə görə, əgər borclunun əmlakının dəyəri borcun həcmindən böyükdürsə, onun xaricə çıxışına məhdudiyyət qoyulmayacaq. Məsələn, 5 min manat borcu olan şəxsin mülkiyyətində olan əmlakın dəyəri 15 min manat olduğu halda, borc əmlakdan asanlıqla tutulacaq. Bu isə onun borcunun ödənilməsi halında xarici ölkəyə çıxışını məhdudlaşdırmayacaq.

**E. CƏFƏRLİ**

# Azərbaycan Mətbuat Şurasının və Vergilər Nazirliyinin «Azərbaycanın vergi sistemi yeni iqtisadi inkişaf mərhələsində» mövzusunda fərdi yazı müsabiqəsinin ELANI

Müsabiqənin məqsədi Azərbaycanın müasir vergi sistemi ilə bağlı məlumatların cəmiyyətə çatdırılmasında vətəndaş və jurnalist yaradıcılığını stimullaşdırmaqdır.

**Müsabiqəyə təqdim olunacaq yazıların mövzu istiqamətləri**

1. Yeni iqtisadi inkişaf modelinin formalaşmasında vergi siyasətinin rolu;
2. Vergi təbliğatı: dövlət tərəfindən müəyyən edilmiş vergiləri ödəmək hər kəsin Konstitusiya borcudur;
3. Dövlət və vergilər: dövlət büdcəsinə ödənilən vergilər nəyə xərclənir?;
4. Vergidən yayınma nə ilə nəticələnə bilər və bu, hansı məsuliyyət yaradır?;
5. Vergi sisteminin və sahibkarlıq subyektlərinin fəaliyyətinin şəffaflaşdırılması;
6. Vergi ödəyicilərinə xidmətlər biznesin idarə edilməsinin asanlaşdırılması vasitəsi kimi;
7. Elektron vergi xidmətlərinin tətbiqi innovativ islahatların «açarı» kimi;
8. Nağdsız ödənişlərin stimullaşdırılmasının vergi daxilolmalarının artmasına təsiri.

**II. Müsabiqəyə təqdim olunmuş yazıların mükafatlandırılması**

I yer - 1000 manat (1 mükafat)
II yer - 800 manat (2 mükafat)
III yer - 500 manat (2 mükafat)
Həvəsləndirici mükafat - 200 manat (5 mükafat)

**III. Müsabiqənin şərtləri**

Müsabiqəyə təqdim olunmuş yazılarda aşağıdakılara üstünlük veriləcək:

1. Materialların mövzunu, konkret olaraq nəzərdə tutulan istiqaməti dolğun əhatəetmə səviyyəsi;
2. Faktlardan istifadə xüsusiyyətləri və araşdırmanın keyfiyyəti;
3. İfadə vasitələrinin zənginliyi;
4. Oxucu üçün informasiyalılıq dərəcəsi;
5. Qabaqcıl dünya təcrübəsi ilə məzmunlu müqayisə.

Müsabiqəyə 2016-cı ilin may ayının 25-dən iyul ayının 15-dək müddətdə qəzet, jurnal və informasiya agentliklərində, həmçinin xəbər saytlarında gedən yazılar buraxılacaq.

Qaliblərin adları 2016-cı ilin iyul ayında - Milli Mətbuat Günü ərəfəsində açıqlanacaq.

Müsabiqə üçün dil və janr məhdudiyyəti nəzərdə tutulmur.

Yazılar 9-11 min işarədən (1 A3 formatlı qəzet vərəqindən) çox olmamalıdır.

Yazıda «Yazı Mətbuat Şurasının və Vergilər Nazirliyinin «Azərbaycanın vergi sistemi yeni iqtisadi inkişaf mərhələsində» mövzusunda fərdi yazı müsabiqəsinə təqdim olunmaq üçün verilir» qeydi olmalıdır.

Qeyd: Azərbaycan Mətbuat Şurasının «qara siyahı»sında yer alan kütləvi informasiya vasitələrində dərc olunan yazılar müsabiqəyə qəbul edilmir.

**IV. Yazıların qiymətləndirilməsi**

Müsabiqəyə qəbul olunmuş materiallar Vergilər Nazirliyi və Mətbuat Şurasının müəyyən etdiyi xüsusi komissiya tərəfindən qiymətləndiriləcək.

**V. Yazıların təqdim edilməsi**

Müsabiqə üçün yazılar ayrıca zərfdə təqdim olunmalıdır.

Yazıya aşağıdakı materiallar da əlavə edilməlidir:

- yazı təqdim edən şəxsin harada işlədiyini təsdiqləyən sənədin surəti;
- yazı təqdim edən şəxsin şəxsiyyət vəsiqəsinin surəti;
- yazı təqdim edən şəxsin əlaqə vasitələri - ev, iş və mobil telefonunun nömrəsi;
- müsabiqə üçün verilmiş yazının getdiyi qəzet və jurnalın 1 nüsxəsi (ayrıca vərəqədə);
- yazı elektron media resursunda verilibsə, bunu təsdiqləyən link (ayrıca vərəqədə);
- materialın yazılı formada A4 formatlı kağız vərəqində 3 nüsxəsi;
- diskdə materialın elektron forması (Times New Roman şriftində, müəllifin adı qeyd olunmamaqla);
- yazı elektron media resursunda verilibsə, diskdə yazının linki göstərilməlidir.

Müsabiqə üçün yazılar may ayının 25-dən iyul ayının 15-dək həftənin iş günləri saat 11.00-dan 17.00-dək Bakı şəhəri, Məmməd Araz küç., 4 ünvanında (əvvəlki Teymur Əliyev küç., 38 - Azərbaycan Mətbuat Şurasının ofisi) və Bakı şəhəri, Ə.Haqverdiyev küç., 60 ünvanında qəbul ediləcək.

Təqdimat prosesində müsabiqə qaydalarının hər hansı birinin yerinə yetirilməməsi qaydaların pozulması kimi qiymətləndiriləcək və yazı qəbul edilməyəcək.

**Əlaqə telefonları:**
(+99412) 441 35 30, (050) 534 93 26, (055) 201 99 26,
(+99412) 403 87 90, (050) 254 25 52,
(+99412) 403 87 88, (050) 254 02 62

**Məsul əlaqələndiricilər:**
Əvəz Rüstəmov (Mətbuat Şurası),
Rövşən Məmmədov (Vergilər Nazirliyi)
Şahin Məmmədov (Vergilər Nazirliyi)

# Manatın likvidliyinin artırılması məqsədilə...

## *Maliyyə Bazarlarına Nəzarət Palatası maliyyə sabitliyi və iqtisadi islahatlarla bağlı perspektiv planları açıqlayıb*

Azərbaycan Prezidentinin iqtisadi islahatlar üzrə köməkçisi Natiq Əmirov bəyan edib ki, aparılan məqsədyönlü tədbirlər nəticəsində hazırda valyuta bazarında sabitləşmə müşahidə olunur və manat öz fundamental qiymətini almaqdadır. Qeyd edilib ki, ABŞ dollarının məzənnəsi Azərbaycanda hələ real bazar dəyərini tapmayıb. Mərkəzi Bankın (MB) sədri Elman Rüstəmov isə bildirib ki, üzən məzənnə rejiminə keçiddən sonra valyuta bazarında gözlənilə bilən gərginliklər tam aradan qalxıb və manatın müəyyən dərəcədə möhkəmlənməsi gedir. Milli valyutanın məzənnəsindəki dəyişikliklərin valyuta bazarı - tələb-təklif əsasında müəyyənləşdiyini qeyd edən MB rəhbəri yaxın gələcəkdə manatın dəyərinin fundamental iqtisadi faktorlar - iqtisadi artım, inflyasiya səviyyəsi, xarici iqtisadi amillər, neftin qiyməti, əsas tərəfdaş ölkələrdəki məzənnə dinamikası üzrə müəyyənləşəcəyini vurğulayıb.

Azərbaycan Bank Tədris Mərkəzinin direktoru Cavanşir Abdullayev isə rəhbəri olduğu təşkilatın manatın likvidliyinin artırılması ilə əlaqədar hökumətə xüsusi təkliflər paketi təqdim etdiyini bildirib. Təkliflərdə manatın likvidliyinin artırılması üçün ilk növbədə bazarın xarici investisiyalara tam açıq olması və bu prosesin təşviq edilməsi əksini tapıb. Bu, milli iqtisadiyyatın şaxələndirilməsinə əlavə stimullar yaratmaq, beynəlxalq rəqabət qabiliyyətini və ixrac potensialını daha da gücləndirmək, bu əsasda tədiyyə balansının və ölkənin beynəlxalq ödəmə qabiliyyətinin strateji dayanıqlığını təmin etmək üçün ən yaxşı addımlardan biri hesab olunur. Bu baxımdan, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və qeyri-neft ixracının stimullaşdırılması məqsədilə ölkənin ixracatçı sahibkarlar təbəqəsi də fəal rol oynamalıdır. Özəl sektorda çalışan sahibkarlar regionlarda müasir tələblərə cavab verən və yüksək texnologiyalarla təchiz olunan yeni sənaye və emal müəssisələrinin açılması, dünya bazarlarına rəqabətədavamlı məhsulların çıxarılması üçün daha səylə çalışmalı, gələcək ixrac bazarları barədə düşünməlidirlər. Çünki keyfiyyətli məhsulla dünya bazarlarına çıxış xarici valyuta üzrə gəlirlərin xeyli artmasına gətirib çıxarır.

C.Abdullayev qeyd edib ki, likvidliyin artırılması üçün ən optimal yollardan biri Dövlət Neft Fondunun aktivlərinin 5%-nin milli valyutaya yatırılması hesab olunur. Həmin vəsaitlər hökumətin prioritet hesab etdiyi layihələrə yönləndirilə bilər. Başqa bir təklif «hecinq» fondunun yaradılmasıdır. Bu halda banklar dollar vəsaitlərini manata çevirib real sektora yönəldə bilər. Bundan başqa, manatın məzənnəsinin yeni rəsmi dəhlizinin formalaşdırılması təklif edilir. Nəzərdə tutulan bu tədbirlərin həyata keçirilməsi iqtisadi fəallığın və ÜDM-in həcminin artmasına öz təsirini göstərəcək, eyni zamanda manatın likvidliyini möhkəmləndirəcək. Mütəxəssis Mərkəzi Bankın indiki şəraitdə manat çap edib dövriyyəyə buraxmasını məqsədəuyğun hesab etmir, çünki əlavə manat emissiyası valyuta sektorunda müəyyən gərginlik yarada bilər.

Maliyyə Bazalarına Nəzarət Palatası da maliyyə sabitliyi və iqtisadi islahatlarla bağlı perspektiv planları açıqlayıb. Palatanın sədri Rüfət Aslanlının sözlərinə görə, islahatları 4 istiqamət üzrə təsnifləşdirmək olar. Birinci istiqamət dayanıqlı makroiqtisadi mühitin yaradılmasıdır ki, bu sahə üzrə aidiyyəti dövlət orqanları koordinasiyalı şəkildə iş aparır. Mərkəzi Bank və Palata bu istiqamətdə tandem formalaşdırıb. Bu gün manatın məzənnəsi, inflyasiya, ümumilikdə isə makroiqtisadi göstəricilər iqtisadi vasitələrlə idarəolunan səviyyədədir. İkinci istiqamət biznesin tranzaksiya xərclərinin azaldılması ilə məqbul səviyyəyə çatdırılacaq işgüzar mühitin formalaşdırılmasıdır. Üçüncü istiqamət isə sərmayə və maliyyə xidmətlərinə geniş çıxışın təmin edilməsidir. Çünki stabil makroiqtisadi vəziyyət sərmayə və maliyyəyə çıxış olmadan işgüzar aktivliyi və rifahı təmin edə bilmir. Bu fəaliyyət çərçivəsində hökumətin iqtisadi qurumları birgə qarşılıqlı əməkdaşlıq həyata keçirəcək. Sonuncu istiqamət çevik və effektiv hüquqi islahatın formalaşdırılmasıdır. Bu sahədə təkmilləşdirmələr davam etdirilir. Məqsəd qanunun aliliyi və hüquq institutlarının effektiv fəaliyyətinə nail olunmasıdır.

**ELBRUS**

# Dövlət Neft Fondunun aktivlərinin dəyəri sabitdir

**Böyük Britaniyada ölkənin Avropa İttifaqında qalıb-qalmaması ilə bağlı keçirilən referendumun nəticələri qeyri-müəyyənlik yaradaraq, dünya maliyyə bazarlarında kəskin dalğalanmalara səbəb olub. Azərbaycan Respublikası Dövlət Neft Fondundan (ARDNF) bildirilib ki, bu, ilk növbədə özünü qlobal səhm və valyuta bazarlarında göstərib: bütün əsas səhm indeksləri 5 faizdən artıq düşüb, ingilis funt sterlinqi və avronun məzənnəsi müvafiq olaraq təqribən 10 faiz və 3 faiz enib. Təbii ki, belə kəskin dəyişikliklər bütün investisiya fondlarının və bankların portfellərinə də mənfi təsir göstərib.**

Azərbaycan Respublikası Dövlət Neft Fondunun hazırda səhm yatırımları ümumi vəsaitlərin təxminən 10 faizə qədərini təşkil edir. Digər 90 faiz isə sabit gəlirli qiymətli kağızlarda,daşınmaz əmlakda və qızılda yerləşdirilib ki, bu aktivlərin dəyəri sabit qalıb və hətta qızılın dəyərində kəskin artım müşahidə olunub. Nəhayət, valyuta məzənnələrindəki qısamüddətli dəyişkənlikdən yaranan fərqə gəldikdə, ARDNF-nin portfelinin aktivlər üzrə olduğu kimi müxtəlif valyutalar üzrə də diversifikasiya olması bu dəyişkənliyin son nəticədə portfelə nə zərər, nə də mənfəət mənbəyi olaraq hesab olunmur və gəlirliliyin hesablanmasında da nəzərə alınmır. Fondun istər maliyyə alətləri, istərsə də valyutalar üzrə yüksək diversifikasiyası onun hazırkı investisiya portfelinin qorunmasına şərait yaradır.

Qeyd edək ki, ARDNF-nin investisiya siyasətinə əsasən, investisiya portfelinin vəsaitinin 50 faizi ABŞ dolları, 35 faizi avro və 5 faizi ingilis funt sterlinqi ilə ifadə olunan aktivlərə, digər 10 faizi isə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar»da nəzərdə tutulmuş - Böyük Yeddilərə (Amerika Birləşmiş Ştatları, Almaniya Federativ Respublikası, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Fransa, İtaliya, Kanada və Yaponiya), Avropa Valyuta Birliyinə daxil olan ölkələrin, Rusiya və Türkiyənin, həmçinin uzunmüddətli öhdəliklər üzrə «A» (Standard ənd Purz, Fiç) və ya «A2» (Mudiz) kredit reytinqindən aşağı olmayan reytinqə malik olan ölkələrin valyutalarında ifadə olunmuş aktivlərə yerləşdirilə bilər.

# Azərbaycanda «Tax free» sisteminin tətbiqinə başlanılır

Dünyanın bir sıra ölkələrində, xüsusilə də Avropa Birliyində «Tax-free» sistemi tətbiq olunur. Bu sistemə əsasən, xarici ölkə vətəndaşlarına səfər zamanı etdikləri alış-verişə görə ödədikləri əlavə dəyər vergisi (ƏDV) geri qaytarılır. Artıq ölkəmizdə də bu sistemin tətbiqinə başlanılır. Bundan sonra yaşı 14-dən yuxarı olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycana səfər edərkən alış-veriş zamanı bu imkanlardan istifadə edəcək və ödədiyi məbləğin bir hissəsini geri ala biləcəklər.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Samirə Musayevanın sözlərinə görə, bu imkandan istifadə etmək üçün «Tax Free» sistemi çərçivəsində satıcı kimi qeydiyyatdan keçərək müvafiq stiker əldə etmiş ticarət obyektlərindən alış-veriş etmək lazımdır. Xarici ölkə vətəndaşları «Tax Free» stikerləri olan mağazalarda alınan mallara görə ödənilən ƏDV məbləğini ölkəni tərk edən zaman geri ala bilərlər. Mallar alındığı tarixdən 90 gün müddətində ölkə




ərazisindən aparılmalıdır, əks halda, mal üçün ödənilmiş ƏDV-nin məbləği geri qaytarılmayacaq: «Bildiyiniz kimi, ölkədə təqdim edilən mallara görə ƏDV-nin dərəcəsi 18%-dir. Ölkəmizdə yenicə tətbiqinə başlanılan «Tax free» sisteminə görə xarici vətəndaş ölkəmizdə olduğu zaman alış-veriş edərkən ödədiyi ƏDV-ni geri ala biləcək. Bunun üçün o, bu sistem çərçivəsində satıcı kimi qeydiyyatdan keçərək «Tax Free» stikeri əldə etmiş mağazanın satıcısına «Tax Free» imkanından istifadə etmək istədiyi barədə məlumat verməli, sonra ƏDV-ni qaytarmaq hüququ verən elektron vergi hesab-fakturasının (e-VHF) doldurulması üçün satıcıya xarici vətəndaşlığını təsdiq edən pasportunu təqdim etməlidir. Satıcı pasport məlumatlarını daxil etdikdən sonra ona 2 nüsxədə imzalanmış və möhürlənmiş e-VHF-ı təqdim edəcək. E-VHF-da digər məlumatlarla yanaşı, ödənilmiş ƏDV-nin məbləği və ƏDV-nin qaytarılacağı son tarix göstərilir». Baş idarə rəisinin sözlərinə görə, «Tax free» sisteminin imkanından istifadə etmək üçün bir e-VHF üzrə alınan malların dəyəri ƏDV ilə birlikdə müəyyən olunmuş məbləğdən az olmamalıdır: «Əcnəbilər Azərbaycanı tərk etdiyi zaman aldıqları malları və e-VHF-ni pasportu ilə birlikdə aeroportda yerləşən gömrük nəzarət-buraxılış məntəqəsinə təqdim etməlidir. Gömrük orqanının nümayəndəsi e-VHF-də müvafiq qeydlərini apardıqdan sonra onu möhürlə təsdiqləyib həmin şəxsə təqdim edəcək. Son olaraq gömrük nəzarət-buraxılış məntəqəsindən verilən e-VHF-ni müvəkkil banka təqdim etmək lazım gələcək. Onu da qeyd etmək lazımdır ki, xarici ölkə vətəndaşının seçdiyi metoddan asılı olaraq, ödəniş milli valyutada nağd və nağdsız qaydada həyata keçirilə bilər. Nağd qaydada banka müvafiq sənədi təqdim etdikdən dərhal sonra ƏDV-nin məbləğini geri almaq olur. Bundan başqa, alıcının istəyinə uyğun olaraq, ƏDV-nin qaytarılması bank kartına (və ya hesabına) köçürmə qaydasında həyata keçirildiyi təqdirdə, alıcı gömrük orqanı tərəfindən təsdiqlənmiş e-VHF-nin bir nüsxəsini gömrük sərhəd-buraxılış məntəqəsində bu məqsəd üçün yaradılmış xüsusi qutuya atmalıdır. Sonra isə e-VHF-lər müvəkkil bank tərəfindən vahid məlumat bazasında təsdiq ediləcək və qaytarılmalı vəsait alıcının göstərdiyi bank kartına (və ya hesabına) köçürüləcək. Köçürülmə metodundan asılı olmayaraq, alınan mallara görə ödənilən ƏDV məbləğindən 20 faiz həcmində xidmət haqqı və bank komissiya haqqı tutulduqdan sonra qalan məbləğ qaytarılır».

S.Musayeva bildirib ki, gömrük məntəqələrində ƏDV-nin geri alınması prosesində gömrük əməkdaşları əcnəbilərdən və vətəndaşlığı olmayan şəxslərdən malı göstərməyi tələb edəcəklər. Bu baxımdan, turistlər ƏDV-ni geri almadan öncə yüklərini təhvil verməməlidirlər, əks təqdirdə, məbləğin geri qaytarılması mümkün olmayacaq. «Tax free» sistemi yalnız xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər üçün nəzərdə tutulduğundan Azərbaycan vətəndaşları bu imkandan yararlana bilməyəcəklər. Həmçinin, Azərbaycanın ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə verilən, haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsi verilən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xidməti vəzifələrini icra edən hava nəqliyyatının heyət üzvü olan şəxslər və yaşı 14-dən aşağı olan şəxslər də sistemdən istifadə edə bilməzlər.

Qeyd olunub ki, «Tax free» sistemini yalnız ƏDV ödəyicisi kimi qeydiyyatdan keçən mağazalar həyata keçirəcək. Bununla yanaşı, həmin obyektlər pərakəndə ticarət fəaliyyəti ilə məşğul olmalı, təsərrüfat subyektində nəzarət-kassa aparatı və POS-terminal olmalı, Vergi Məcəlləsi ilə müəyyən edilmiş vergilərlə bağlı dövlət büdcəsinə borcu və digər öhdəliyi olmamalıdır: «Təsərrüfat subyektlərinin «Tax free» sisteminə qoşulması könüllü formada həyata keçirilməlidir. ƏDV ödəyicisi olan istənilən təsərrüfat subyekti bununla bağlı Vergilər Nazirliyinə müraciət edə bilər. Müraciət üçün nazirliyin rəsmi internet səhifəsində «Tax free» bölməsi də yaradılıb. Xüsusi olaraq vurğulamaq lazımdır ki, aksizli mallara, ərzaq mallarına, dərman preparatları və tibbi ləvazimatlara, ölkənin mədəni-tarixi sərvəti hesab edilən, mədəni irsin qorunması üçün mühüm əhəmiyyət kəsb edən mallara, ölkə daxilində satışı ƏDV-dən azad edilən mallara, ixracı üçün lisenziya tələb edilən mallara, çərçivəyə salınmamış, emal edilməmiş və ya çeşidlənməmiş qiymətli daşlara, külçə şəklində qiymətli metallara, müşayiət olunmayan baqajla ölkə ərazisindən aparılan mallara, nəqliyyat vasitələri və onların ehtiyat hissələrinə, poçt və ya internet xidməti vasitəsilə ixrac edilən mallara «Tax Free» sistemi tətbiq edilməyəcəkdir».

Qeyd edək ki, bu sahə üzrə vahid məlumat bazasının operatoru olan Vergilər Nazirliyi malların satışının rəsmiləşdirilməsi və əlavə dəyər vergisinin qaytarılması işlərini təşkil edəcək, proqram təminatının daim işlək vəziyyətdə saxlanılmasını və fasiləsiz fəaliyyətini təmin edəcəkdir.

**Aytən NƏBİYEVA**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Bakıda Formula-1 Avropa Qran-Pri yarışına hazırlıq və yarışın keçirilmə müddətində Heydər Əliyev Beynəlxalq Aeroportu **118 mindən** çox sərnişinə və **640**-dan çox reysə xidmət göstərib.
- Bu ilin ilk 5 ayı ərzində İrandan Azərbaycana səfər edən xarici vətəndaşların sayı **74.890** nəfər olub və bu, 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə **23%** artım deməkdir.
- 2016-cı ilin yanvar-may aylarında dəmir yolu nəqliyyatı ilə **5,8 milyon** ton yük, **742,9 min** sərnişin daşınıb.
- Dövlət Statistika Komitəsindən verilən məlumata görə, əhalinin banklardakı əmanətlərinin **81,7%**-i xarici, **18,3%**-i isə milli valyutada qoyulub. Əmanətlərin **77,3%**-i özəl banklarda yerləşdirilib.
- 2016-cı ilin yanvar-may aylarında informasiya və rabitə müəssisələri tərəfindən hüquqi və fiziki şəxslərə göstərilən **644,4 milyon** manatlıq xidmətlərin **71,9%**-i əhali sektoruna aid olub.

# Vergi ödəyicilərinə borclarını ödəmək üçün güzəştli imkanlar yaradılır

**Vergilər Nazirliyi vergi ödəyiciləri tərəfindən vergi öhdəliklərinin icra edilməsinin təkmilləşdirilməsini daim diqqətdə saxlayır və bu proses vergi borclarının alınması işində daha böyük əhəmiyyət kəsb edir. İlk növbədə, vergi borcunun yaranma səbəbləri araşdırılır, borcun ödənilməsi ilə bağlı vergi ödəyicisinin imkanları dəyərləndirilir və borcun yönəldilməsi üçün mənbələr dəqiq müəyyən edilir.**

Bununla bağlı Vergilər Nazirliyində borclu vergi ödəyiciləri barədə məlumat bazası yaradılıb və həmin vergi ödəyiciləri müvafiq meyarlar nəzərə alınmaqla risk qrupları üzrə bölüşdürülüb. Borclu vergi ödəyiciləri barədə məlumat bazasının yaradılması vergi borcunun ödənilməsi istiqamətində daha tez nəticə verə biləcək metodların seçilməsinə, onların müvafiq risk qruplarına ayrılması isə borclu ödəyicilər üzrə görülmüş və görüləcək işlərə nəzarətin daha effektli şəkildə həyata keçirilməsinə köməklik göstərir.

Xatırladaq ki, 2013-cü ilin yanvar ayının 1-dən etibarən vergi ödəyicilərinin «Vergi partnyorluğu sazişi»nin bağlanılması üçün vergi orqanlarına müraciət etmək hüququ təsbit olunub. Vergi orqanları ilə vergi ödəyiciləri arasında bağlanmış bu saziş vergi risklərinin minimallaşdırılması məqsədilə könüllü şəkildə bağlanılmış niyyət razılaşması olmaqla yanaşı, vergi ödəyicilərinə bir sıra üstünlüklər verir. Vergi orqanı ilə partnyorluq sazişi bağlamaq istəyən vergi ödəyiciləri ilk öncə büdcə qarşısında bütün vergi öhdəliklərini yerinə yetirməlidirlər.

## Vergi borcları barədə məlumatların vergi ödəyicilərinə çatdırılması üçün geniş məlumatlandırma vasitələrindən istifadə edilir

Hazırda vergi borcları barədə məlumatların vergi ödəyicilərinə çatdırılması üçün geniş məlumatlandırma vasitələrindən istifadə edilir. Bunun üçün vergi ödəyicilərinə bildiriş və xəbərdarlıqların göndərilməsi ilə yanaşı, onların mobil telefon nömrələrinə borc məbləğləri barədə qısa mesajların göndərilməsi də həyata keçirilir. Bununla da vergi borcu barədə məlumatın vergi ödəyicisinə vaxtında çatdırılması vergi borclarının operativ qaydada alınmasına köməklik göstərir.

Cinayət Məcəlləsinin 213-cü maddəsinin «qeyd» hissəsinin tələblərinə əsasən, cinayət tərkibi yaratmış vergi borcu ilə əlaqədar əməl ilk dəfə törədilərsə və cinayət nəticəsində vurulmuş ziyan tamamilə ödənilərsə, vergi ödəyicisi cinayət məsuliyyətindən azad oluna bilər. Bundan başqa, cari ilin iyun ayının 1-dən qüvvəyə minmiş Cinayət Məcəlləsinə əlavə və dəyişikliklərə görə, Azərbaycanda qanunsuz sahibkarlıqla məşğul olan şəxslər cərimə ödəməklə məsuliyyətdən azad olunacaqlar. Məcəllənin 192-ci (qanunsuz sahibkarlıq) maddəsinə əlavə edilən «qeyd» bölməsində göstərilir ki, Cinayət Məcəlləsinin 192.1-ci maddəsində nəzərdə tutulmuş əməli ilk dəfə törədən şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə və cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürdükdə cinayət məsuliyyətindən azad olunur. Xatırladaq ki, dəyişiklikdən əvvəlki qanunvericiliyə görə, qanunsuz sahibkarlıqla məşğul olan şəxs cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki misli miqdarında cərimə və ya 6 ayadək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırdı.

Cinayət Məcəlləsinin qəbulundan artıq 16 il keçib. Bu müddət ərzində Azərbaycan iqtisadiyyatının inkişafı və baş verən digər iqtisadi proseslər nəticəsində dövriyyədə olan məhsulların, xidmətlərin dəyəri və insanların gəlirləri bir neçə dəfə artıb. Buna baxmayaraq, məsuliyyətin yaranmasına səbəb olan məbləğlər bu dövr ərzində Cinayət Məcəlləsində artırılmayıb. Məcəllədə məsuliyyət müəyyən edən həmin məbləğlərin dəyişməməsi hazırda ictimai təhlükə törətməyən əməllərə görə bir çox sahibkarın cinayət məsuliyyətinə cəlb edilməsinə səbəb olurdu. Bunun qarşısını almaq üçün Cinayət Məcəlləsində nəzərdə tutulmuş həmin məbləğlər artırılıb. Belə ki, əvvəllər vergi və gömrük rüsumlarından 2000 manat məbləğində yayınan sahibkarlar cinayət məsuliyyətinə cəlb edilirdi. Yeni qanun qüvvəyə mindikdən sonra isə cinayət məsuliyyəti yaradan hədd 10 dəfə artırılaraq 20.000 manat olmuşdur. Yəni 20.000 manata qədər vergi və gömrük rüsumlarından yayınan şəxslər artıq cinayət məsuliyyətinə deyil, inzibati məsuliyyətə cəlb ediləcəklər. Bu da həmin məbləğə qədər olan əməllərin dekriminallaşdırılması deməkdir.

Bundan başqa, əvvəllər iqtisadi fəaliyyət sahəsində olan cinayətlər fəslində cinayət məsuliyyəti yaradan hədd 1000 manat müəyyən edilirdi, dəyişikliklə həmin məbləğ 20 dəfə artırılaraq 20.000 manat olub. Bu da həmin məbləğə qədər olan hissədə əməllərin dekriminallaşdırılması deməkdir. Başqa bir dəyişikliyə əsasən, ilk dəfə böyük ictimai təhlükə törətməyən qanunsuz sahibkarlıq və ya yalançı sahibkarlıq cinayətlərini törətmiş şəxslər əldə etdikləri qanunsuz gəliri və ya vurduqları ziyanı dövlət büdcəsinə tamamilə ödədikdə məsuliyyətdən azad ediləcəklər.Bu dəyişiklik nəticəsində ümumilikdə 24 maddədə sahibkarların məsuliyyəti yüngülləşdirilir.

Dekriminallaşan əməllərə görə sözügedən qanun qüvvəyə minənədək məhkum edilmiş və hazırda cəzasını çəkən şəxslər cəzadan azad olunurlar. Yeni qanunla cinayət hesab olunmayan əməllərə görə əvvəllər məhkum edilmiş və cəzasını çəkmiş şəxslər məhkumluğu olmayan hesab edilirlər.

**Rəşad SADIQOV**

# Sığorta tənzimlənməsində yeni yanaşmalar axtarılır

**İyunun 23-də Bakıda Qafqaz regionunun ən böyük sığorta tədbiri - VII Azərbaycan Beynəlxalq Sığorta Forumu (AIIF-2016) öz işinə başlayıb. Azərbaycan Maliyyə Bazarlarına Nəzarət Palatasının dəstəyi, Azərbaycan Sığortaçılar Assosiasiyasının təşkilatçılığı ilə keçirilən tədbirdə dünyanın 20 ölkəsindən 200-dən çox şirkətin nümayəndələri iştirak ediblər.**

İki gün davam edən forum çərçivəsində Azərbaycanın və bütövlükdə regionun sığorta bazarı üçün aktual mövzular - «Nəzarət mexanizmləri: meqa requlyator və ya klassik requlyator», «Azərbaycan sığorta bazarının yeni reallıqları - nəzarət orqanının baxışları və proqnozları», «Regionda makroiqtisadi tendensiyalar və onların sığorta bazarına təsiri», «Hazırkı mühitdə sığorta bazarının inkişafı üzrə prioritet istiqamətlər və yeni nəzarət üsulları», «Bugünkü reallıqda Azərbaycan və regionun sığorta bazarının inkişafı üçün yeni həllər», «Sığorta tənzimlənməsində və nəzarətində yeni yanaşmalar» kimi mövzular ətrafında geniş müzakirələr keçirilib.

Tədbirin moderatoru - Avropanın sığorta və peşə təqaüdləri üzrə təşkilatının müşahidə şurasının üzvü və Sloveniyanın sığorta nəzarəti orqanının rəhbəri Sergey Simmoniti Azərbaycan sığorta bazarının yeni reallıqları - nəzarət orqanının baxışları və proqnozları barədə geniş məruzə ilə çıxış edib. Sonra Maliyyə Bazarlarına Nəzarət Palatasının Strateji Xidmətlər Departamentinin direktoru Asim Zülfüqarov, Türkiyə Sığorta Birliyinin baş direktoru Akif Eroğlu, «Fitch Ratings»in MDB ölkələri üzrə nümayəndəliyinin direktoru Anastasiya Litvinova, Fransanın DIET, «Europ Assistance» şirkətinin İdarə Heyətinin sədri Jan-Frankois və digər çıxışçılar mövzu ətrafında forum iştirakçılarına ətraflı məlumat veriblər.

Beynəlxalq forumda təkrarsığorta mövzusu da diqqət mərkəzində olub. «Təkrarsığortaya yeni baxış», «Regionda böhran şəraitində təkrarsığorta həlləri», «Təkrarsığorta bazarının qlobal tendensiyaları», «Təkrarsığorta bazarı sığorta bazarının inkişafı və diversifikasiyasına necə kömək edə bilər», «Hazırkı reallıqda təkrarsığortanın sığorta şirkətlərinin maliyyə sabitliyində rolu» və digər mövzular ətrafında müzakirələr aparılıb. Sığorta forumunda kənd təsərrüfatı sığortası, bu sahədə beynəlxalq təcrübə və modellər, risklərin adekvat qiymətləndirilməsi və risklərin əhatə olunması üçün əsas həllər, regionlar üzrə kənd təsərrüfatı sığortası modelləri, bu sahənin dövlət tərəfindən tənzimlənməsi kimi məsələlərdən də bəhs edilib, avtomobil sığortası, bu sahədə zərərlərin qiymətləndirilməsi üzrə tariflər və sistemlər, proseslərin elektronlaşdırılması, yeni satış kanalları ilə bağlı təqdimat və çıxışlar dinlənilib.

Müzakirələr panelində sığorta bazarının inkişafı üzrə prioritet istiqamətlər və yeni nəzarət üsulları, iqtisadi böhranın sığorta bazarına təsirinin nəticələri, regionun sığorta bazarının inkişafı üçün sığorta tənzimlənməsi və nəzarəti sahəsində müasir yanaşmalar araşdırılıb, yeni sığorta məhsullarının yaradılması, həyat sığortası, bank sığortası, banklarla əməkdaşlıq, paket sığorta məhsullarının inkişafı və digər mövzular üzrə təqdimatlar olub.

**Fəxriyyə İKRAMQIZI**

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# İcarəyə götürülmüş dövlət torpaqlarından vergi

***Hüquqi şəxs tərəfindən icarəyə götürülmüş dövlət torpaqlarına görə torpaq vergisi və icarə haqqı kim tərəfindən ödənilməlidir?***

Vergi Məcəlləsinin 204-cü maddəsinə görə, Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər və müəssisələr torpaq vergisinin ödəyiciləridir. Məcəllənin 205-ci maddəsinə uyğun olaraq, fiziki şəxslərin və müəssisələrin Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində olan torpaq sahələri torpaq vergisinin vergitutma obyekti sayılır. 208.6-cı maddəyə görə, müəssisələrin torpaq vergisi dövlət büdcəsinə, fiziki şəxslərin torpaq vergisi isə yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir.

«Torpaq icarəsi haqqında» 11 dekabr 1998-ci il tarixli 587-IQ nömrəli Qanunun 14-cü maddəsinin müddəalarına əsasən, torpağın icarə haqqı torpaqdan müddətli istifadəyə görə icarəçinin icarəyəverənə ödədiyi vəsaitdir. İcarəyəverən torpaq vergisi tədiyyəçisi olduqda, torpaq vergisi icarə haqqının tərkibinə daxil edilir. İcarəyəverən torpaq vergisi tədiyyəçisi olmadıqda isə icarə haqqının tərkibində torpaq vergisi nəzərə alınmır. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, dövlət mülkiyyətində olan torpaqların icarə haqları Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürülür.

«Torpaq icarəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 12 mart 1999-cu il tarixli 116 nömrəli Fərmanının 2-ci bəndinin 7-ci abzasına görə, dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalara nəzarəti dövlət müəssisə, idarə və təşkilatlarının istifadəsində olan və ya dövlət obyektlərinin tikintisi layihələşdirilmiş, özəlləşdirilən, habelə üzərində hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi dövlətə məxsus torpaqlara münasibətdə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi, qalan torpaqlara münasibətdə isə Azərbaycan Respublikasının Vergilər Nazirliyi həyata keçirir.

Qeyd olunanlara əsasən, dövlət hakimiyyəti orqanlarının mülkiyyətində və ya istifadəsində olan torpaq sahələri hüquqi şəxslərə icarəyə verilən zaman icarəyəverən dövlət orqanı torpaq vergisinin tədiyyəçisi olmadığı üçün icarəyə götürən hüquqi şəxslər dövlətdən icarəyə götürülmüş torpaq sahəsinə görə icarə haqqı ödəməklə yanaşı, bu torpaq sahələrinə görə dövlət büdcəsinə torpaq vergisi də ödəməlidir.

# İpoteka mexanizmi beynəlxalq standartlara uyğunlaşdırılır

Azərbaycanda ipoteka kreditləşməsi mexanizminin təkmilləşdirilməsi, beynəlxalq standartlara uyğun inkişaf etdirilməsi və ipoteka kreditlərindən faydalanan şəxslərə xidmət səviyyəsinin yüksəldilməsi məqsədilə ardıcıl olaraq müvafiq tədbirlər həyata keçirilir. Azərbaycan İpoteka Fondundan verilən məlumata əsasən, Prezident İlham Əliyevin imzaladığı «Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında» fərmanla ölkəmizdə ipoteka kreditlərinin qaydaları dəyişdirilir. Həmin fərmanla Azərbaycan İpoteka Fondunun vəsaitləri hesabına kreditlərin verilməsi qaydaları da təsdiqlənib. Qaydalarda digər məsələlərlə yanaşı, güzəştli ipoteka kreditlərinin kimlərə veriləcəyi müəyyən edilib.

Qaydalara əsasən, gənc ailənin üzvü olan aşağıdakı şəxslər: şəhid ailəsinin üzvü (əri/arvadı, övladları); Milli Qəhrəman (özü, əri/arvadı, övladları); məcburi köçkün və ya ona bərabər tutulan şəxs; ən azı 3 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxs; ən azı 5 il dövlət ümumtəhsil məktəbində müəllim işləyən şəxs; fəlsəfə doktoru elmi dərəcəsi olan şəxs; idman sahəsində xüsusi xidmətləri olan şəxs (fəxri bədən tərbiyəsi və idman xadimi, ölkə miqyaslı yarışların qalibi (I yer), beynəlxalq miqyaslı yarışların mükafatçısı (I, II və ya III yer) güzəştli ipoteka kreditindən istifadə etmək hüququna malikdirlər.

Bundan başqa, elmlər doktoru elmi dərəcəsi olan şəxslər, ən azı 15 il dövlət qulluğunda qulluq edən şəxslər, ən azı 3 il hərbi



xidmətdə olan (müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulardan başqa), həmçinin ehtiyata və istefaya buraxılmış Azərbaycan Respublikasının hərbi qulluqçuları («Hərbi vəzifə və hərbi xidmət haqqında» Azərbaycan Respublikası Qanununun 41.0.6-cı, 41.0.7-ci, 41.0.8-ci, 41.0.10-cu, 42.0.3-cü, 42.0.4-cü və 42.0.5-ci maddələrində nəzərdə tutulan hallarda ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçular istisna olmaqla); ən azı 3 il daxili işlər orqanlarında xidmət keçən xüsusi rütbəsi olan şəxslər güzəştli ipoteka kreditlərindən yararlana biləcəklər.

İqtisadçı ekspert Rəşad Əliyevin sözlərinə əsasən, «Azərbaycan İpoteka Fondu» ASC-nin vəsaiti hesabına ipoteka kreditlərinin verilməsi qaydalarında ipoteka kreditinin maksimal məbləği, ilkin ödəniş və kredit faizləri ilə bağlı məsələlər də öz həllini tapıb: «İpoteka kreditləri üzrə maksimal məbləğlər İpoteka Fondunun Müşahidə Şurası tərəfindən ölkədaxili sosial-iqtisadi vəziyyətin təhlili əsasında müəyyən ediləcək. Fond iqtisadi şəraitdən asılı olaraq bu göstəriciləri yeniləyəcək, eyni zamanda kredit üzrə faizləri müəyyənləşdirəcək». Müsahibimizin sözlərinə görə, kreditlərin maksimal müddəti saxlanılıb və müvafiq olaraq adi kreditlər üzrə 25 il, güzəştli kreditlər üzrə 30 il müəyyənləşdirilib. Kredit üzrə minimal müddət 3 ildir: «Adi ipoteka kreditləri üzrə kredit məbləği mənzilin dəyərinin 75-85%-ni təşkil etməlidir. Deməli, ilkin ödəniş 15%-dən 25%-dək olmalıdır. Alıcının müraciəti əsasında ilkin ödəniş daha da artırıla bilər. Güzəştli ipoteka kreditləri üzrə isə ilkin ödəniş 15% təşkil edəcək».

Tələb olunan gəlirlər və yaş tələblərinə gəldikdə isə, ekspertin sözlərinə görə, ipoteka krediti üzrə ödəniləcək aylıq məbləğ kredit alanın aylıq məcmu gəlirinin 70%-dən çox olmamalıdır. Yaş həddinə gəldikdə isə kreditin son ödəniş tarixinə borcalanın yaşı qanunla müəyyən olunmuş pensiya yaşı həddinə çatmamalıdır: «Güzəştli ipoteka krediti dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına, habelə dövlət zəmanətli istiqrazların emissiyasından əldə olunan vəsaitlər hesabına veriləcək. Dövlət büdcəsindən vəsaitlərin faizsiz verilməsi, sözsüz ki, güzəştli ipoteka kreditləri üzrə daha aşağı faizlərin tətbiq edilməsinə şərait yaradacaq. Buradan belə anlamaq olar ki, adi ipoteka kreditləri üçün vəsaiti fond özü kommersiya əsasları (istiqrazların buraxılması və s.) ilə cəlb edəcək. Lakin hesab edirəm ki, bu istiqamətdə fond müəyyən çətinliklərlə üzləşəcək. Çünki bazarda mövcud olan maliyyə alətləri üzrə faizlər yüksəkdir və onların cəlb edilərək kreditə verilməsi baha başa gələcək. İstisna deyil ki, ucuz maliyyə vəsaitlərinin cəlb edilməsi üçün Mərkəzi Bankın yardımından istifadə olunsun».

**F.İKRAMQIZI**

# Sadələşdirilmiş viza rejiminin tətbiqi öz bəhrəsini verir

Mədəniyyət və Turizm Nazirliyindən bildirilib ki, ötən ilin may ayı ilə müqayisədə 2016-cı ilin mayında Birləşmiş Ərəb Əmirliklərindən (BƏƏ) ölkəmizə səfər edən xarici vətəndaşların sayı 30 dəfə artıb. Son bir neçə il ərzində Mədəniyyət və Turizm Nazirliyinin BƏƏ-nin Dubay əmirliyində keçirilən «ATM» beynəlxalq turizm sərgisində mütəmadi olaraq və Şərqa əmirliyində keçirilən «2-ci turizm səyahət bazarı: ailəvi turizmin təbliğatı 2015» beynəlxalq turizm sərgilərində ölkəmizin turizm potensialının təbliği, 2011-ci ildən etibarən Dubay Əmirliyində fəaliyyət göstərən təmsilçi nümayəndəliyin («Atlantis Holidays» şirkəti) olması, həmçinin 2015-ci ilin noyabr ayından etibarən adıçəkilən ölkə vətəndaşları üçün sadələşdirilmiş viza rejiminin tətbiqi nəticəsində bu artım baş verib.

Qeyd edək ki, 2011-ci ildə Mədəniyyət və Turizm Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin «Atlantis Holidays» şirkəti arasında «Körfəz əməkdaşlıq ölkələri - bazar əlaqələrində iştirakın istiqamətlənməsi və ictimai əlaqələr xidmətinin təmin edilməsi haqqında» müqavilə imzalanıb. Həmin ildən etibarən «Atlantis Holidays» şirkəti BƏƏ-də nazirliyin turizm üzrə təmsilçilik funksiyalarını yerinə yetirir. 2011-ci ildən etibarən adıçəkilən şirkət Körfəz ölkələrindən turistlərin ölkəmizə səyahət etməsinin stimullaşdırılması istiqamətində müvafiq tədbirlər (Azərbaycanın turizm potensialı ilə bağlı marketinq kampaniyalarının aparılması, turizm sənayesi və KİV nümayəndələri üçün info və press turların təşkili, beynəlxalq turizm sərgilərində təmsilçiliyin həyata keçirilməsi və s.) həyata keçirir.

# «Sosial işçi» modeli ilə bağlı tədbirlər planı hazırlanır

## Beynəlxalq standartlara uyğun olan bu yeni model ilkin olaraq pilot ərazilərdə həyata keçiriləcək

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Avropa İttifaqının «Sosial xidmətin inkişafı» Tvinninq layihəsinin əsas hədəflərindən biri nazirliyin sosial xidmət işçilərinin peşəkarlıq səviyyələrinin qabaqcıl beynəlxalq təcrübəyə uyğun «sosial işçi» modeli əsasında təkmilləşdirilməsidir. Bu məqsədlə ilkin olaraq 4 pilot ərazi - Bakı şəhərinin Xəzər rayonu, Gəncə şəhəri, Lənkəran və Xaçmaz rayonları seçilib.

**Məqsəd əhalinin digər həssas kateqoriyalarının ilkin sosial xidmətlərə əlçatanlığının təmin edilməsidir**

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun sözlərinə görə, layihə çərçivəsində və Avstriyanın müvafiq dövlət qurumları ilə əməkdaşlıq müstəvisində sosial xidmətlər sisteminin mütərəqqi dünya praktikasına uyğunlaşdırılması üçün müvafiq işlər görülür: «Hazırda nazirliyin rayon (şəhər) əhalinin sosial müdafiəsi mərkəzlərinin sosial xidmət işçiləri tərəfindən yalnız tənha ahıl və əlil şəxslərə səyyar formada xidmətlər göstərilir. Lakin qarşıda duran məqsəd əhalinin digər həssas kateqoriyalarının ilkin sosial xidmətlərə əlçatanlığının da təmin edilməsidir. Ona görə də ölkəmizdə beynəlxalq və mütərəqqi standartlara uyğun yeni «sosial işçi» modelinin tətbiqi işləri aparılır. Bu modeldə həm sosial işin əhatə etdiyi şəxslərin kateqoriyaları, həm də funksional miqyası xeyli genişlənir. Sosial işin əhatə dairəsinə sosial müdafiəyə ehtiyacı olan insanlar, o cümlədən əlilliyi olan şəxslər, sağlamlıq imkanları məhdud uşaqlar, sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayan şəxslər, ahıllar, aztəminatlı ailələr, məişət zorakılığına məruz qalmış şəxslər, insan alverinin qurbanı olan şəxslər, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər və başqaları daxildir. «Sosial işçi» modeli həmin insanlara ilkin sosial xidmətlər göstərilməklə problemlərin həlli istiqamətində dəqiq qərar qəbul edilməsini, sosial xidmətlərə əlçatanlığının təmin olunmasını, onların cəmiyyətə inteqrasiyasını, həmçinin sosial-psixoloji ehtiyaclarının müəyyənləşdirilməsini və s. nəzərdə tutur».

Nazirin sözlərinə görə, bu modelin tətbiqi üçün cəlb edilən əməkdaşlara qabaqcıl beynəlxalq təcrübənin öyrədilməsi, onların öz iş sahələrində nəzəri və praktiki biliklərinin artırılması məqsədilə silsilə təlimlər təşkil olunub. Bu təlimlər həmin ərazidə çalışan sosial xidmət işçilərinin müvafiq sahədə qabaqcıl beynəlxalq təcrübəni öyrənmələrində əhəmiyyətli rol oynayıb.

**A.NƏBİYEVA**

# Ünvanların elektron idarəolunması sistemi fəaliyyətə başlayıb

Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) tərəfindən Azərbaycanda beynəlxalq standartlara uyğun yeni ünvan sisteminin qurulması işləri davam etdirilir. Komitədən verilən məlumata görə, bu sistem həm əhalinin, həm də dövlət və özəl qurumların faydalana biləcəyi mühüm layihədir.



Ünvanla bağlı problemlərin sadə vətəndaşların, biznes qurumlarının, eləcə də dövlət orqanlarının gündəlik işində xeyli çətinliklər yaratdığı hər kəsə məlumdur. Digər tərəfdən, şəhər, qəsəbə və kəndlərdə aparılan genişmiqyaslı tikinti-quruculuq işləri, əhalinin urbanizasiyası mükəmməl ünvan sisteminin olması zərurətini artırır. Bütün bunlar nəzərə alınaraq, ƏMDK tərəfindən qısa müddət ərzində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə Ünvan Reyestri İnformasiya Sistemi yaradılıb. Bu sistem daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi, saxlanılması, ləğv edilməsi və digər fəaliyyətləri təmin edir. Sistemdə bütün daşınmaz əmlaklarla bağlı ünvan məlumatları, eləcə də küçə və prospektlərlə bağlı digər məlumatlar rəqəmsal şəkildə toplanır. Yeni sistem vasitəsilə ilk dəfə olaraq, respublika üzrə ünvan məlumatları bir virtual mərkəzdə toplanıb, ünvanların elektron idarə edilməsinə nail olunub. Ünvan xəritəsindən çıxarış, obyektlərə ünvan verilməsi işi elektronlaşıb. Həmçinin, ünvan axtarışında naviqasiya sisteminin tətbiqi üçün imkan yaradılıb.

Komitədən bildirilir ki, yeni ünvanvermə qaydalarına əsasən, «giriş ünvanı konsepsiyası» tətbiq olunur. Ünvanlar binalara yox, binanın hər bir girişinə ayrıca verilir. Bu da beynəlxalq standarta cavab verməklə yanaşı, ünvan axtarışı üçün vaxtı minimuma endirir. Bu sahədə iş elə qurulur ki, məlumatlar yaşından, intellektual səviyyəsindən, peşəsindən və s. asılı olmayaraq, bütün insanlar üçün rahat, istifadə edilə bilən, dəqiq və aydın olsun. Başqa sözlə, ünvan məlumatları onu axtaran vətəndaşa, hüquqi şəxsə, qurumlara ünvan obyektinə tez, ən qısa yolla, vaxt itirmədən və rahat çatmasını təmin edir. Ünvan məlumatlarının axtarışı sistemi də sadələşdirilib. Buradan istənilən an çevik və müfəssəl məlumat əldə etmək olar. Yeni sistem digər məlumat bazaları, axtarış-informasiya sistemləri, əhalinin, hüquqi şəxslərin, daşınmaz əmlakın reyestr bazaları ilə də inteqrasiya olunub.

Hazırda Ünvan Reyestri İnformasiya Sistemində ölkənin 6 şəhəri, 50 rayonu üzrə 6705 küçə və prospektindəki daşınmaz əmlak obyektlərinə yeni qaydalara uyğun təyin edilmiş 603.126 giriş ünvanı, 335.037 daxili ünvan məlumatları mövcuddur. Komitənin Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidməti tərəfindən 45 rayonun 1259 yaşayış məntəqələri üzrə 13.527 adsız küçə formalaşdırılıb. Yaxın aylar ərzində onların adlandırılması ilə bağlı müvafiq müraciətlər ediləcək.

**AYTƏN**

# Bələdiyyə vergilərinin ödənilmə vaxtı yaxınlaşır

*Vergi Məcəlləsinə görə, dörd bələdiyyə vergisi mövcuddur: fiziki şəxslərin torpaq vergisi; fiziki şəxslərin əmlak vergisi; yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi; bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi.*

***Fiziki şəxslərin torpaq vergisi***

Fiziki şəxslərin torpaq vergisi bələdiyyələr tərəfindən hər il iyul ayının 1-dək hesablanır və ödənilməli olan torpaq vergisinin məbləğini özündə əks etdirən tədiyyə bildirişi avqust ayının 1-dən gec olmayaraq onlara çatdırılır. Bir neçə fiziki şəxsin mülkiyyətində və ya istifadəsində olan tikililərin altında qalan və ya onlara xidmət üçün ayrılmış torpaq sahələrinə görə vergi onlara məxsus tikili sahələrinə mütənasib qaydada hesablanır. Hesablanmış torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq fiziki şəxslər tərəfindən yerli (bələdiyyə) büdcəyə ödənilir. Torpaq vergisi torpağın əvvəlki sahibi tərəfindən ödənilmədiyi halda, vergi müəyyən edilmiş ödəmə vaxtına həmin torpağın sahibi tərəfindən ödənilməlidir.

Fiziki şəxslərin sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə etdikləri torpaqlara görə hesablanmış torpaq vergisinin məbləği gəlirdən çıxılmalara aid edilir. Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər və müəssisələr torpaq vergisinin ödəyiciləri hesab olunurlar. Torpaq vergisi torpaq mülkiyyətçiləri və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticəsindən asılı olmayaraq, torpağın sahəsinə görə illik olaraq hesablanır. Torpaq vergisi torpaq barəsində mülkiyyət və ya istifadə hüququnu təsdiq edən sənədlər əsasında müəyyənləşdirilir. Tikililərin və qurğuların altında olan torpaqlara, həmçinin obyektlərin sanitariya mühafizəsi üçün zəruri olan torpaq sahələrinə görə torpaq vergisi tətbiq edilir. Fiziki şəxslər və bələdiyyə müəssisələri torpaq sahələri barədə özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədləri aldıqdan sonra bələdiyyələrdə 1 ay müddətində uçota durmalıdırlar. Kənd təsərrüfatı torpaqlarının vergi dərəcələri torpaqların təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti ballar əsasında torpaq sahəsinin hər bir hektarına görə hesablanır. Bir şərti balın qiyməti 6 qəpikdir. Bu şərti ballar Nazirlər Kabineti tərəfindən müəyyən edilmişdir. Kənd təsərrüfatı torpaqları istisna olmaqla torpaq vergisi torpaq sahəsinin hər 100 kvadratmetrinə görə aşağıdakı cədvəldə göstərilən dərəcələr tətbiq olunur:

| Yaşayış məntəqələri | Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar (manatla) | |
|---|---|---|
| | *10000 $m^2$-dək olduqda* | *10000 $m^2$-dən yuxarı olan hissə üçün* |
| Bakı | 10 | 20 |
| Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu | 8 | 16 |
| Digər şəhərlər (rayon tabeliyində olan şəhərlər istisna olmaqla), rayon mərkəzləri | 4 | 8 |
| Rayon tabeliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun qəsəbə və kəndləri istisna olmaqla) | 2 | 4 |

| Yaşayış məntəqələri | Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar (manatla) | |
|---|---|---|
| | *10000 $m^2$-dək olduqda* | *10000 $m^2$-dən yuxarı olan hissə üçün* |
| Bakı | 0.6 | 1.2 |
| Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu | 0.5 | 1 |
| Digər şəhərlər (rayon tabeliyində olan şəhərlər istisna olmaqla), rayon mərkəzləri | 0.3 | 0.6 |
| Rayon tabeliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun qəsəbə və kəndləri istisna olmaqla) | 0.1 | 0.2 |

***Fiziki şəxslərin əmlak vergisi***

Rezident və qeyri-rezident fiziki şəxslər əmlak vergisinin ödəyiciləridir. Fiziki şəxslərin xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililərin və ya onların hissələrinin, həmçinin yerindən və istifadə edilib-edilməməsindən asılı olmayaraq rezident fiziki şəxslərə məxsus su və hava nəqliyyatı əmlak vergisinin vergitutma obyektidir.

Fiziki şəxslər əmlak vergisini aşağıdakı qaydada və dərəcələrlə ödəyirlər:

- Xüsusi mülkiyyətində olan binaların sahəsinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə görə aşağıdakı cədvəldə göstərilən dərəcələr tətbiq olunur (bina Bakı şəhərində yerləşdikdə, həmin dərəcələrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi 0,7-dən aşağı və 1,5-dən yuxarı olmayan əmsallar tətbiq edilməklə):

| Yaşayış məntəqələri | Fiziki şəxsin xüsusi mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələri (manatla) |
|---|---|
| Bakı | 0,4 |
| Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu | 0,3 |
| Digər şəhərlər (rayon tabeliyində olan şəhərlər istisna olmaqla), rayon mərkəzləri | 0,2 |
| Rayon tabeliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun qəsəbə və kəndləri istisna olmaqla) | 0,1 |

- su və hava nəqliyyatı vasitələrinə görə mühərrikinin 1 kubsantimetri üçün 0,02 manat; mühərriki olmayan su və hava nəqliyyatı vasitələri üçün - onların bazar qiymətinin 1 faiz qədərində. Su və hava nəqliyyatı vasitələrinə görə vergi onların qeydiyyatını həyata keçirən təşkilatlar tərəfindən verilən məlumatlar əsasında hər il yanvarın 1-i vəziyyətinə hesablanır. Belə qeydiyyatın olmadığı hallarda, həmin əmlakın sahibi mülkiyyətində olan su və hava nəqliyyatı vasitələri barədə lazımi məlumatları (buraxılış ili, alış qiyməti və texniki xarakteristikası) əks etdirən sənədləri hər il yanvar ayının 1-dək bələdiyyəyə təqdim edir. Bir neçə fiziki şəxsə məxsus olan su və hava nəqliyyatı vasitəsinə görə vergi həmin nəqliyyat vasitəsini öz adına qeydiyyatdan keçirmiş şəxsdən tutulur. Bələdiyyələr əmlak vergisinin ödənilməsi barədə tədiyyə bildirişini vergi ödəyicilərinə avqustun 1-dən gec olmayaraq verməlidirlər. Cari il üçün verginin məbləği bərabər hissələrlə - həmin il avqustun 15-dək və noyabrın 15-dək ödənilir.

Binalar üzrə əmlak vergisi əmlak sahəsinin hər kvadratmetrinə əsasən hesablanır. Fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalara görə əmlak vergisi onların yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən hesablanır. Bir neçə sahibi olan bina üzrə əmlak vergisi həmin binanın hər sahibi üçün binanın dəyərindəki payına uyğun olaraq hesablanır.

Əmlak vergisi əmlakın əvvəlki sahibi tərəfindən ödənilmədiyi hallarda, vergi ödəmə vaxtında həmin əmlakın mövcud faktiki sahibi tərəfindən ödənilir.

**Fiziki şəxslərin torpaq vergisi bərabər məbləğlərdə 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq fiziki şəxslər tərəfindən yerli (bələdiyyə) büdcəyə ödənilir**

***Mədən vergisi***

Azərbaycan Respublikasının ərazisində faydalı qazıntıların çıxarılmasına görə ödənilən vergi mədən vergisi adlanır və yerin təkindən bu faydalı qazıntıları çıxaran fiziki şəxslər və müəssisələr mədən vergisinin ödəyiciləridir. Aşağıdakı yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi bələdiyyə büdcəsinə ödənilir:

- kərpic-kirəmit gilləri;
- tikinti qumları;
- çınqıl xammalı.

Fiziki şəxslər və müəssisələr bu tikinti materiallarına görə yerin təkindən çıxarılan hər 1 kubmetr material üçün 1 manat məbləğində vergi ödəyirlər. Mədən vergisi üzrə vergitutulan əməliyyatın aparıldığı vaxt faydalı qazıntıların çıxarıldığı vaxt sayılır.

Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Hesabat ayı üçün mədən vergisinin məbləği faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dək ödənilir. Mədən vergisinin bəyannaməsi hər ay, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq bələdiyyələrə təqdim edilməlidir.

Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini bələdiyyə büdcəsinə ödəyirlər. Bu verginin dərəcəsi 20%-dir.

Bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcələrini azaltmaq barədə qərar qəbul edə bilərlər. Ancaq bələdiyyələr hansısa vergini artırmaq səlahiyyətlərinə malik deyillər.

**Rəşad SADIQOV**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Bakıda MDB-nin Standartlaşdırma, Metrologiya və Sertifikatlaşdırma üzrə Dövlətlərarası Şurasının üzv dövlətlərinin 49-cu iclası keçirilib.

Fransada Azərbaycanın yeni turizm imkanlarının təşviqi məqsədilə anlaşma memorandumu imzalanıb.

Rusiyanın Soçi şəhərində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının mədəniyyət və turizm əməkdaşlığı üzrə işçi qrupunun birgə iclasında Azərbaycan nümayəndə heyəti də iştirak edir.

Qazaxıstanın İnvestisiya və İnkişaf Nazirliyi beynəlxalq daşıyıcılara Ukraynadan bu ölkəyə yüklərin daşınması zamanı Gürcüstan və Azərbaycandan keçməklə Xəzər dənizinə, oradan Aktau limanına, eləcə də Türkiyə, İran, Türkmənistan və Özbəkistan ərazilərindən istifadə etməyi tövsiyə edib.

Azərbaycanda turizmin inkişafı və xarici turistlərin sayının artması məqsədilə Bələdçilər Assosiasiyası yaradılacaq.

Azərbaycanda dəmir yollarının əsaslı təmiri prosesinin növbəti mərhələsinə başlanılıb.

# Aqrar sahənin yeni inkişaf strategiyası hazırlanır

*Bu sahədə əsas prioritetlərdən biri vergi güzəştlərinin təkmilləşdirilməsindən ibarətdir*

Qeyri-neft sektorunun əsas sahələrindən hesab olunan kənd təsərrüfatının gələcəyi ilə bağlı hökumət tərəfindən ciddi tədqiqatlar aparılır, bu sahənin müxtəlif sektorları üzrə proqnozlaşdırılmış perspektivlər araşdırılır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, aqrar sahənin əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri 2025-ci ildən sonrakı dövrün perspektivlərini də əhatə edir. Təbii ki, strategiya real proqnozlara əsaslanmalıdır. Aqrar sektorun özəlliyi onun təkcə idarəetmədən asılılığı deyil, eyni zamanda təbiətlə bağlı olmasıdır. Ona görə də kənd təsərrüfatının inkişaf perspektivləri təhlil edilərkən ölkə ərazisində baş verən iqlim dəyişiklikləri, yağıntıların intensivliyi, torpağın şoranlaşması, temperaturun artması və digər amillər nəzərə alınacaq. Qeyd olunan istiqamətlərin hər biri üzrə ciddi tədqiqatlar aparılıb ümumi konsepsiya hazırlanacaq. ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə taxılçılığın, meyvəçiliyin, üzümçülüyün, tərəvəzçiliyin, tütünçülüyün, toxumçuluq və tingçiliyin, hevandarlığın, aqrar-emal sənayesinin və aqromarketinqin, aqroservis xidmətlərinin inkişaf etdirilməsindən ibarətdir. Müəyyən edilmiş hədəflərə çatmaq üçün aqrar sahədə informasiya-məsləhət xidmətlərinin təşkili, elmi-tədqiqat müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, onların fəaliyyətinin bazar iqtisadiyyatının tələbləri əsasında yenidən təşkili qarşıda duran əsas prioritetlərdəndir. Bundan başqa, aqrar sahənin ixrac potensialının artırılması və tam reallaşdırılması, daxili bazarın beynəlxalq tələblərə uyğun forma və metodlarla qorunması üçün zəruri tədbirlər həyata keçiriləcəkdir.

Aqrar sektorun maliyyə və maddi-texniki bazasının yaxşılaşdırılması, davamlı inkişafının dəstəklənməsi, beynəlxalq təcrübəyə uyğun intensiv və səmərəli stimullaşdırılma üçün dövlət dəstəyi si üçün yerli istehsal müəssisələrinin də istifadəyə verilməsini planlaşdırır. Bu məqsədlə respublikada azot gübrəsi istehsal edən zavodun tikilməsi və mövcud Sumqayıt superfosfat zavodunun yenidən qurulması, Gəncə avtomobil zavodunda traktor və digər kənd təsərrüfatı texnikalarının istehsalının həcminin genişləndirilməsi nəzərdə tutulur. Eləcə də yüngül sənaye müəssisələrinin fəaliyyətinin bərpası, pambıq və pambıq məhsullarının emalı, şərab və şərab məhsulları, konyak və digər alkoqollu içkilərin istehsalı müəssisələrinin modernləşdirilməsi, zeytun emalı üçün mini zavodların qurulmasının stimullaşdırılması, kənd yerlərində kiçik həcmli emal müəssisələrinin, xüsusilə tez xarab olan meyvə-tərəvəz emalı şəbəkəsinin yaradılması planlaşdırılır.

Aqrar sahənin inkişafında vergi siyasəti mühüm rol oynadığından, bu istiqamətdə inkişaf proqramlarının hazırlanması və həyata keçirilməsi bilavasitə vergi-fiskal



BMT-nin Ərzaq Təhlükəsizliyi Təşkilatı da (FAO) bu sahə üzrə tədqiqatlar aparır və bu araşdırmalar da yeni ərzaq təhlükəsizliyi strategiyasının hazırlanmasına təkan verir. Azərbaycan aqrar sahədə layihələrin həyata keçirilməsində beynəlxalq institutlarla əməkdaşlığa da önəm verir. Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondun (IFAD) Mərkəzi Asiya və Avropa bölməsinin direktoru xanım Xalidə Bouzar bildirib ki, kənd təsərrüfatı və aqrobiznesin inkişafı strategiyasına (2015-2020-ci illər) uyğun olaraq, bu sahədə innovativ layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Layihə çərçivəsində kənd təsərrüfatı ilə məşğul olan bölgələrin inkişafı, iş yerlərinin və güclü kənd icmalarının yaradılması təmin ediləcək.

Kənd təsərrüfatı naziri Heydər Əsədov bildirib ki, gələcəkdə aqrar siyasətin əsas prinsipləri və inkişaf prioritetləri ölkənin davamlı tədbirlərinin davam etdirilməsi nəzərdə tutulur. Sahibkarların maliyyə resurslarına olan ehtiyaclarının ödənilməsini təmin etmək məqsədilə kənd yerlərində maliyyə-kredit institutlarının (aqrar bankların, zəmanət fondlarının) yaradılması, maddi-texniki təminatı yaxşılaşdırmaq üçün lizinqlə məşğul olan qurumların fəaliyyətinin genişləndirilməsi və bu sahədə yeni təşkilatların təsis edilməsi, aqrar sahədə sığortanın stimullaşdırılması üçün mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi, təbii fəlakətlər nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalçılarına dəyən ziyanın azaldılması məqsədilə icbari sığorta mexanizminin yaradılması strateji siyasətin əsas istiqamətlərini təşkil edəcək.

Hökumət aqrar-sənaye komplekslərinin yaradılması ilə yanaşı, kənd təsərrüfatının mineral gübrələrə və preparatlara, maşın və texnikaya olan ehtiyacının ödənilmə- rejimlərin müşayiəti ilə tənzimlənir. Ona görə də yaxın onillik proqramların icrası zamanı əsas prioritetlərdən biri bu sahədə tətbiq olunan subsidiyaların, vergi güzəştlərinin və güzəştli kreditlərin verilməsi sisteminin təkmilləşdirilməsi, aqrolizinq və aqroservis xidmətlərinin şərtlərinin asanlaşdırılmasından ibarətdir. Həmçinin, daxili aqrar bazarın xarici bazarların təsirindən qorunması üçün bir sıra ərzaq məhsullarına tətbiq edilən gömrük-idxal tarif dərəcələrinə yenidən baxılması, o cümlədən mövsümi rüsumların tətbiq edilməsi nəzərdə tutulur. Proqnozlara görə, səmərəli vergi-gömrük siyasətinin həyata keçirilməsi sayəsində ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalının stimullaşdırılması və istehsalın əhəmiyyətli dərəcədə artırılması mümkün olacaq.

**E.CƏFƏRLİ**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Fiziki şəxs tərəfindən nəqliyyat vasitəsinin baş etibarnamə ilə başqa fiziki şəxsə verilməsinin vergi məsuliyyəti

Hörmətli oxucular, əmlakdan sahibkarlıq və qeyri-sahibkarlıq məqsədləri üçün istifadə zamanı icarə və idarəetmə münasibətlərinin qurulmasına hüquqi və audit nöqteyi-nəzərindən təhlillərimiz qəzetimizin əvvəlki sayında sizə təqdim olundu. Lakin, şəxslər (mülki subyektlər) arasında hələ də bu iki məsələnin fərqinə düzgün yanaşmadan öz fəaliyyətlərini davam etdirənlərə, yəni «idarəetmə» adı altında «icarə» görüntülərinə rast gəlmək olur.

Məsələn, hazırda baş («generalnı» kimi adlandırılan) etibarnamə ilə nəqliyyat vasitələrini bir-birinə idarəetməyə verən fiziki şəxslər arasındakı mülki münasibətlərdən yaranan öhdəliklərə mülki və vergi qanunvericiliyinin tələbləri çərçivəsində düzgün əməl olunmadığının şahidi oluruq. Nəqliyyat vasitəsini baş etibarnamə əsasında əldə etməklə (satın aldığını zənn etməklə) həmin etibarnamənin qüvvədə olduğu müddətdə nəqliyyat vasitəsindən sahibkarlıq və ya qeyri-sahibkarlıq fəaliyyəti üçün (və ya şəxsi məqsədləri üçün) istifadə edən, yaxud əksinə, baş etibarnamə ilə mülkiyyətində olan nəqliyyat vasitəsini başqasına istifadəyə verən fiziki şəxslər kifayət qədər saya malikdir.

Bir fiziki şəxs tərəfindən digər fiziki şəxsə məxsus nəqliyyat vasitəsinin (və ya nəqliyyat vasitələrini) baş etibarnamə əsasında istifadə edilməsinin Azərbaycan Respublikasının Mülki Məcəlləsinin tələblərinə zidd olub-olmadığını araşdıraq. Mülki Məcəllənin 362.1-ci maddəsinə əsasən bir şəxsin 3-cü şəxs qarşısında təmsilçilik üçün başqa şəxsə verdiyi vəkalət etibarnamə sayılır. Məcəllənin 152.8-ci və 359.1-ci maddələrində etibarnamə ilə rəsmiləşdirilməsi mümkün olan mülki hüquq münasibətləri nəzərdə tutulmuşdur. 152.8-ci maddəyə əsasən mülkiyyətçi əmlakını başqa şəxsin etibarnaməli idarəçiliyinə (etibarnaməli idarəçi) verə bilər. Əmlakın etibarnaməli idarəçiyə verilməsi mülkiyyət hüququnun etibarnaməli idarəçiyə keçməsinə səbəb olmur. O, əmlakı mülkiyyətçinin və ya mülkiyyətçinin göstərdiyi 3-cü şəxsin mənafeyi naminə idarə etməlidir. 359.1-ci maddəyə əsasən əqd təmsilçi vasitəsilə də bağlana bilər. Bir şəxsin (təmsilçinin) etibarnaməyə, qanunun göstərişinə və ya buna vəkil edilmiş dövlətin və ya bələdiyyə orqanının aktına əsaslanan səlahiyyətə görə başqa şəxs (təmsil edilən) adından bağladığı əqd təmsil edilənin mülki hüquq və vəzifələrini bilavasitə yaradır, dəyişdirir və onlara xitam verir.

Deməli, etibarnamə yalnız etibar edənin 3-cü şəxs qarşısında təmsil olunması, onun hüquq və mənafelərinin həyata keçirilməsi üçün verilir. Buna görə də etibar edilən fiziki şəxs etibar olunmuş əmlakdan, yəni nəqliyyat vasitəsindən öz xeyrinə hər hansı hərəkətlər edə, yaxud da etibarnamə əsasında verilmiş nəqliyyat vasitəsindən öz mənafeyi naminə istifadə edə bilməz. O, nəqliyyat vasitəsini mülkiyyətçinin (nəqliyyat vasitəsini etibarnamə ilə verənin) və ya mülkiyyətçinin göstərdiyi 3-cü şəxsin mənafeyi naminə idarə etməlidir. Məlumdur ki, hazırda, baş etibarnamə ilə nəqliyyat vasitəsini satın aldığını zənn edən fiziki şəxs, özünün xəbəri olmadan da, idarə etdiyi (sürdüyü) nəqliyyat vasitəsini heç də, mülkiyyətçinin və ya mülkiyyətçinin göstərdiyi 3-cü şəxsin mənafeyi məqsədilə sürmür. Belə şəxslər nəqliyyat vasitəsindən özünün şəxsi, ailəvi və bəzi hallarda sahibkarlıq məqsədləri üçün istifadə edirlər. Belə fiziki şəxslər etibarnamənin qüvvədə olduğu müddətdə yalnız, nəqliyyat vasitəsinin qeydiyyatı ilə bağlı notariat və dövlət orqanında müvafiq hərəkətlərin edilməsi məqsədilə etibarnamədə göstərilənlərə əməl edirlər. Əgər etibar edilən fiziki şəxs (baş etibarnamə alan) onun idarəçiliyinə verilmiş nəqliyyat vasitəsindən öz mənafeyi naminə istifadə edirsə, bu halda münasibətlər Mülki Məcəllənin 700-cü maddəsinə əsasən icarə müqaviləsi ilə rəsmiləşdirilməlidir. Həmin maddədə göstərilir ki, icarə müqaviləsi əmlak kirayəsi müqaviləsidir. Bu müqaviləyə görə kirayəyə verən (icarəyə verən) kirayəçiyə (icarəçiyə) icarəyə götürdüyü obyektdən və ya hüquqdan istifadə ilə yanaşı, bəhərdən istifadə etmək və gəlir götürmək hüququ da verilir. İcarəçi icarəyə verənə müəyyənləşdirilmiş icarə haqqı ödəməyə borcludur. İcarə predmeti o cümlədən, daşınar əşyalar (məsələn, nəqliyyat vasitələri) ola bilər.

Beləliklə, aydın olur ki, baş etibarnamə ilə nəqliyyat vasitəsini satın aldığını zənn edən fiziki şəxs həqiqətdə sürdüyü nəqliyyat vasitəsini qeydiyyatdan çıxarana qədər istifadə etməklə bəhrələnir, lakin bu istifadənin yaratdığı öhdəliklərdən xəbərsizdir.

Xüsusilə qeyd edək ki, nəqliyyat vasitəsi ilə bağlı tərtib olunan baş etibarnamədə əks etdirilən «sürücülük hüququ olduqda idarə etməyi» ifadəsi onun «sürməyi» ifadəsini bildirir və bu ifadənin Mülki Məcəllədə nəzərdə tutulan «təmsil edənin idarə etməsi» anlayışına uyğun gətirilməməlidir. Əslində nəqliyyat vasitəsi idarə edilmir, sürülür. Yəni etibarnamə ilə etibar olunan fiziki şəxs sürücülük hüququ olduqda nəqliyyat vasitəsini sürə bilər, bir şərtlə ki, bu nəqliyyat vasitəsi ilə bağlı hərəkətlər mülkiyyətçinin və ya mülkiyyətçinin göstərdiyi 3-cü şəxsin mənafeyi naminə olsun. Nəqliyyat vasitəsinin 3-cü şəxsin mənafeyi naminə idarə edilməsi dedikdə, məsələn, nəqliyyat vasitəsini qeydiyyatdan çıxarmaq, qeydiyyata salmaq, bağışlamaq, ipoteka qoymaq, başqa şəxslərə icarəyə (istifadəyə vermək), onun üzərində sərəncam vermək, bu tapşırıqların yerinə yetirilməsi ilə əlaqədar adından ərizə vermək və əlbəttə ki, mülkiyyətçinin adından bütün hərəkətlərin edilməsini təmin etmək üçün nəqliyyat vasitəsini sürmək səlahiyyətinin əldə edilməsi nəzərdə tutula bilər.

Əslində, dolayısı ilə istifadə edərək öhdəliklərindən xəbərsiz olan baş etibarnamə ilə nəqliyyat vasitəsi əldə edən fiziki şəxsin vergi məsuliyyəti yoxdur. Çünki, etibarnamə alan fiziki şəxs tərəfindən nəqliyyat vasitəsinin istifadə edildiyini (dolayısı ilə icarəyə götürüldüyünü) və istifadəyə verən kimi çıxış edənin də fiziki şəxs olduğunu nəzərə alsaq, Vergi Məcəlləsinin 124.1-ci maddəsinə görə nəqliyyat vasitəsini icarəyə verən kimi qiymətləndirilən fiziki şəxs 14 faiz dərəcə ilə vergini ödəməli və bu Məcəllənin 33-cü və 149-cu maddələrinə uyğun olaraq vergi uçotuna alınıb bəyannamə verməlidir. Bu halda vergilər Vergi Məcəlləsinin 14-cü maddəsinə uyğun olaraq hesablana bilər.

Bu tələblərə əməl olunmasının nə dərəcədə baştutan olması hazırkı vəziyyətdə çətin məqamlar yaradır. Nəqliyyat vasitəsini etibarnamə əsasında idarəetməyə verən fiziki şəxslərin sonradan etibar edilən tərəfindən nəqliyyat vasitəsindən düzgün istifadə olunmasına nəzarət edə bilməsi də çətin hallardan biridir. Çıxış yolu kimi, notariat kontorlarda etibarnamə verən və etbarnamə əldə edən fiziki şəxslərə qısaca da olsa bu etibarnamə əsasında öhdəlikləri barədə məlumatların verilməsi və vergi riskləri barədə maarifləndirilməsi məqsədəmüvafiq olardı. Digər tərəfdən də, etibarnamə ilə bərabər, etibarnamənin qüvvədə olduğu dövr üzrə nəqliyyat vasitəsinin icarəyə verilməsi müqaviləsinin bağlanması həyata keçirilə bilər. Eyni anda həm nəqliyyat vasitəsinin icarəyə verilməsi müqaviləsi, həm də etibarnamə əldə edən fiziki şəxsin icarə müqaviləsi və etibarnamə çərçivəsində etdiyi bütün hərəkətlərə görə vergi məsuliyyəti olmayacaqdır. Lakin icarə müqaviləsinin bağlanması nəqliyyat vasitəsini icarəyə verənin vergi uçotuna durması (VÖEN əldə etməsi), bəyannamə təqdim etməsi və vergi ödəmə öhdəliyini yaradacaqdır (VM, maddə 124.1, 2-ci abzas).

# Pul siyasətinin çevikliyi iqtisadi artıma ciddi təsir göstərir

**Pul siyasəti, əsasən, qiymətlərin sabitliyinin təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlər sistemidir. Azərbaycan Respublikasında pul siyasəti Mərkəzi Bank tərəfindən həyata keçirilir. «Mərkəzi Bank haqqında» Qanunda göstərilib ki, pul siyasətinin əsas alətləri açıq bazarda əməliyyatlar; faiz dərəcələrinin müəyyənləşdirilməsi; məcburi ehtiyat normaları; kredit təşkilatlarının yenidən maliyyələşdirilməsi; depozit əməliyyatları; beynəlxalq təcrübədə qəbul edilmiş pul siyasətinin digər alətlərindən ibarətdir.**

Bank üzrə mütəxəssis Amil Əsədovun dediyinə görə, pul siyasətinin transmissiya mexanizmi Mərkəzi Bank tərəfindən qəbul edilən pul siyasəti qərarlarının iqtisadiyyata təsiri (ötürülməsi) prosesi anlamına gəlir. Müasir dövrdə pul siyasətinin faiz dərəcələri, kreditlərin verilməsi, valyuta məzənnəsi, səhmlərin dəyəri və s. kimi transmissiya kanalları mövcuddur. Pul-kredit siyasəti iqtisadi proseslərin çevik idarə edilməsində və stabilləşdirilməsində Mərkəzi Bankın tədbirlər sistemi əsas rol oynayır. İnflyasiyanı nəzarət altında saxlamaqla yeni iş yerlərinin açılması, əhalinin məşğulluğunun təmin edilməsi son nəticədə ölkə iqtisadiyyatının inkişafına təkan verir və münbit maliyyə mühiti yaradır. Bu məqsədlərin əldə edilməsində MB pul kütləsinin tənzimlənməsindən geniş istifadə edir. İqtisadiyyatın sabit inkişafına nail olmaq, investisiya fəallığını artırmaq və canlanma yaratmaq üçün Mərkəzi Bank 2016-cı ildə pul siyasətinin çevikliyinin artırılması istiqamətində məqsədyönlü tədbirləri davam etdirir.

## Azərbaycan iqtisadiyyatı son 10 ildə 3,4 dəfə artıb ki, bu da ən yüksək göstərici hesab olunur

Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov Azərbaycan Dövlət İqtisad Universitetində «İqtisadi artım və makroiqtisadi siyasət» mövzusunda çıxışında son 10 ildə qazanılan makroiqtisadi sabitlik, iqtisadi artım, qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi, monetar siyasət, bankların kapitallaşması barədə məlumat verib: «Son dövrlər regionda baş verən hadisələrə və dünya bazarında neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, Azərbaycan öz iqtisadi artım tempini qoruyub saxlayıb». İqtisadiyyatda qeydə alınan müsbət dinamikanın əsasən qeyri-neft sektorunun inkişafı hesabına təmin edildiyini deyən sədrin sözlərinə görə, son 10 ildə ölkə iqtisadiyyatı 3,4 dəfə artıb ki, bu da ən yüksək göstəricidir. Makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi istiqamətində Mərkəzi Bankın hökumətlə birgə həyata keçirəcəyi kompleks tədbirlərdən də danışan E.Rüstəmov bildirib ki, bank sektorunda maliyyə sabitliyinin qorunması, banklarda əhalinin əmanətlərinin və digər depozitlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə bu sahədə maliyyə dayanıqlığının, kapital və likvidlik mövqeyinin gücləndirilməsi, əmanətlərin sığortalanması sisteminin təkmilləşdirilməsi istiqamətində geniş spektrli işlər görülür. O, nağdsız ödənişlərin inkişafı, elektron ödəniş xidmətlərinin və innovativ ödəniş texnologiyalarının tətbiqinin genişləndirilməsinin Mərkəzi Bankın fəaliyyətinin mühüm hədəflərindən olduğunu da vurğulayıb: «Yeni çağırışlardan irəli gələn vəzifələrin icrasında Mərkəzi Bankda insan kapitalının, tədqiqat və analitik bazasının, idarəetmə proseslərinin daha da müasirləşməsi və inkişafı vacib rol oynayacaq. Mərkəzi Bank 2016-cı ildə pul siyasətinin çevikliyinin artırılmasına, milli iqtisadiyyatın maliyyə dayanıqlığının və beynəlxalq rəqabət qabiliyyətinin təmin olunmasına imkan verən siyasət həyata keçirmək əzmindədir».

**Fəxriyyə İKRAMQIZI**

## vergi təqvimi

| İYUL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | 1 | 2 | **3** |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | **10** |
| 11 | 12 | 13 | 14 | **15** | 16 | **17** |
| 18 | 19 | **20** | 21 | 22 | 23 | **24** |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | **31** |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

15 iyul - «(1)» və «(2)».

20 iyul - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «9», «(9-1)», «10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir. Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)»- Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman mərc oyunları üzrə):** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır. İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə):** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür. Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı, hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# Koreyada büdcə kəsirini aradan qaldırmağın qeyri-adi üsulu



Vergilər hüquqi dövlətin gəlirlərinin əsas qaynağıdır. İqtisadi tənəzzül dövründə hökumətlər vergilərlə bağlı müxtəlif tədbirlərə əl atmaq məcburiyyətində qalırlar, məsələn, gəlir və ya korporativ verginin dərəcəsini qaldırır, dəbdəbə vergisi tətbiq edir, alkoqol, tütün və benzin üçün aksizləri artırırlar.

Enerji bazarının böhranı bir sıra ölkələri yeni vergi növləri barədə düşünməyə vadar etmişdir: Səudiyyə Ərəbistanında əcnəbilər üçün vergi, Polşada pərakəndə satış vergisi, Böyük Britaniyada şəkər vergisi, Kanadada kömür vergisi və s. tətbiq olunmağa başlamışdır. Tarixi ədəbiyyatda Rusiyada «saqqal vergisi», İspaniyada «subay kral vergisi», Sovet İttifaqında «subaylıq vergisi», Berlin divarlarının sökülməsindən sonra Almaniyada «həmrəylik vergisi» kimi qəribə yığımlar barədə də məlumatlarla rastlaşırıq. Məsələ bundadır ki, dünyanın müxtəlif yerlərində tutulan qəribə vergilərin siyahısı bu gün də kifayət qədər müxtəlifdir:

- «Kölgə vergisi» (İtaliya);
- Xizəkçilərdən tutulan «gips vergisi» (Avstriya);
- «Manqal vergisi» (Belçika);
- «Günəş vergisi» (İspaniya);
- Ölkədən gedən turistlərdən tutulan vergi və istixanada gül yetişdirmək üçün «gül vergisi» (Qırğızıstan);
- «Şaurma vergisi» (Suriya);
- «ABŞ dolları vergisi» (Kuba);
- «Təbii fəlakət vergisi» (Haiti ) və s.

Bu cür qeyri-adi yığımların siyahısına son vaxtlar Koreyada biri də əlavə olunub. İndi bu ölkədə aparılan plastik əməliyyatlara görə vergi tutulur. 2014-cü il yanvarın 1-dən Cənubi Koreya hökuməti bütün estetik cərrahiyə əməliyyatlarının (üzdən çapıqların götürülməsi, göz əməliyyatları kimi həyat üçün zəruri olan əməliyyatlar istisna olmaqla) 10% ƏDV-yə cəlb olunması barədə qərar çıxarıb.

Estetik cərrahiyə üzrə beynəlxalq assosiasiyanın məlumatına görə, 2014-cü ildə bütün dünyada aparılmış 4 milyon əməliyyatın 5 faizi Cənubi Koreyanın payına düşür. İndi bu ölkədə estetik cərrahiyyə ən böyük tələbat olan biznes sektoruna çevrilib. Artıq ölkə əhalisinin 2 faizi plastik əməliyyat olunub. Onu da qeyd etmək lazımdır ki, plastik əməliyyata meyil bu ölkəyə xaricdən gələn turistlər arasında da üçqat artıb. 2012-ci ildə Cənubi Koreyada tibbi turizmdən 726,3 milyard von (622 milyon ABŞ dolları) vəsait əldə olunmuşdu. Koreya hökumətinin gözləntisinə görə, 2020-ci ilədək bu gəlir 3,5 trilyon vona (3 milyard ABŞ dollarına) çatdırılacaq və ÜDM-in 0,2 faizini təşkil edəcək.

# Avropa Komissiyası ədalətli vergiqoyma barədə sazişə dair press-reliz yayıb

Komissiya iyunun 21-də vergidən yayınma problemlərinin həlli ilə bağlı Avropa İttifaqı ölkələri tərəfindən yeni qaydaların qəbul edilməsi barədə sazişi bəyənib. Bu barədə yayılan mətbuat açıqlamasında bildirilib ki, qurum korporativ təcrübədə vergi ödəməkdən ən geniş yayılmış yayınma yollarının aradan qaldırılması üçün uzunmüddətli qaydalara ümumi yanaşmanın qəbul edilməsini alqışlayır.

İlk növbədə, Avropa Komissiyasının yanvar ayında təklif etdiyi icbari hüquqi normalar aqressiv vergi planlaşdırılması sahəsində göstərilən qlobal səylərin stimullaşdırılması üçün razılaşdırılıb. Bu direktivdə qəbul edilən tədbirlər iri transmilli şirkətlər tərəfindən tətbiq olunan vergidən yayınmanın əsas yollarına qarşı yönəldilib və OECD-nin keçən il işləyib hazırladığı BEPS (OECD-nin vergi tutulan bazanın yuyulmasına və gəlirlərin yerinin dəyişdirilməsinə qarşı mübarizə üzrə fəaliyyət planı) sənədinin bazasında formalaşdırılmış qlobal standartlara əsaslanır.

Avropa Komissiyasının iqtisadi və maliyyə, vergi və gömrük məsələləri üzrə komissarı Pyer Moskovisi deyib: «Bu gün imzalanmış saziş korporativ vergiləri həddən artıq uzun müddət yayındıranlara qarşı ciddi zərbədir, bir sıra şirkətlər milyardlarda avro məbləğində vergini ödənməkdən yayınmaq üçün Avropa İttifaqına üzv dövlətlərin vergi sistemləri arasındakı uyğunsuzluqlardan istifadə ediblər. Mən üzv dövlətlərimizi təbrik edirəm, onlar həmin şirkətlərin öz ədalətli vergi payını ödəmələrinin təmin edilməsi üçün zəruri olan dəyişikliklərin edilməsi məqsədilə hazırda mübarizə aparır və birlikdə işləyirlər. Mən, həmçinin, Niderlandın Avropa İttifaqındakı prezidentliyinə bu məqsədə nail olmaq üçün göstərdiyi fədakarlığa görə təşəkkür edirəm. Bəzi tədbirlər ayrı-ayrı üzv dövlətlərdə yaranan problemlər üzündən dəyişikliyə uğrasa da, Komissiya əvvəlki kimi əmindir ki, əgər biz qəbul edilməsi lazım olan təcili tədbirləri görmək istəyiriksə, bu direktivlə əlaqədar razılığın tez əldə olunması zəruridir. Parlament öz razılığını verdiyinə görə, yeni qaydalar tezliklə Şura tərəfindən rəsmi şəkildə qəbul ediləcək. Bu qanunun həyata keçirilməsi hazırda bir sıra iri şirkətlər tərəfindən öz ədalətli vergi payını ödəməmək üçün istifadə olunan vergi planlaşdırmasının daha geniş yayılmış aqressiv sxemlərinin tətbiqinə son qoyacaq. Məsələn, üzv dövlətlərin hamısı indi şirkətin faktiki fəaliyyət göstərmədiyi aşağı vergi qoyan ölkələrə köçürülmüş gəlirlərindən vergi tuta biləcək. Əvvəllər intellektual əmlak kimi aktivlərdən əldə olunan və Avropa Birliyinə keçirilmiş gəlir vergiyə cəlb oluna bilirdi (eksport vergitutma qaydası), bundan sonra digər ölkələr də vergidən yayınma barədə konkret qaydalarla əhatə olunmamış vergidən yayınma sxemlərinin qarşısını almaq üçün səlahiyyətləndiriliblər (vergi ödəməkdən yayınmaya qarşı mübarizənin ümumi qaydalarına əsasən)».

Avropa Komissiyası prezident Yunkerin mənfəət vergisindən yayınma ilə bağlı problemlərin həllinə şərait yaratmaq, eləcə də Avropada ədalətli vahid bazarın təmin olunması, iş yerlərinin sayının və investisiyaların artırılmasına dair vədlərini müsbət qarşılayıb.

Komissiya tərəfindən vergi şəffaflığının yüksəldilməsi və korporativ vergitutma sahəsində islahat aparılması ilə bağlı irəli sürülmüş əsas təşəbbüslər konkret nəticələr verməyə başlayıb. Komissiyanın 2016-cı ilin yanvarında verdiyi bir ölkənin vergi orqanları ilə digər ölkənin vergi orqanı arasında vergi hesabatı təqdim etmək barədə təklifi mart ayında qəbul edilmişdi. Bu qayda Avropa İttifaqında yerləşən nəhəng transmilli şirkətləri məcbur edir ki, öz fəaliyyətlərinə aid ətraflı vergi informasiyasını müvafiq orqanlara təqdim etsinlər. Avropa Komissiyasının vergilərlə bağlı məlumatların avtomatik mübadilə edilməsi ilə bağlı təklifi də üzv dövlətlər tərəfindən cəmi yeddi ay ərzində - keçən ilin oktyabr ayında razılaşdırılmışdı.

# Kanadada əlçatan mənzil proqramına əsaslı investisiya qoyulacaq

Qarşıdakı 2 il ərzində hökumət bu proqrama böyük həcmli investisiyalar qoymaqla vətəndaşlara daşınmaz əmlak bazarına daxil olmaq üçün daha geniş imkanlar yaratmağı planlaşdırır. İki il ərzində əlçatan mənzillərin maliyyələşdirilməsi üçün 1 milyard Kanada dolları (1 Kanada dolları=1.1747 manat) məbləğində maliyyə yatırılacaq. Bu məbləğdən əlavə, proqram çərçivəsində aşağıda göstərilmiş vəsaitlər ayrılacaq.



200,1 milyon dollar - yaşlı nəslin ehtiyaclarına uyğun olaraq mənzillərin tikintisinə, bərpa edilməsinə və yeni şərtlərə uyğunlaşdırılmasına;

89.9 milyon dollar - ailə zorakılığının qurbanlarının müvəqqəti yaşaması üçün evlərin tikilməsinə və bərpa edilməsinə;

177.7 milyon dollar - Şimali Kanada xalqlarının mənzil problemlərinin həllinə;

573.9 milyon dollar - sosial mənzillərin bərpasına və modernləşdirilməsinə.

Bunlardan əlavə, həmin proqram üçün 485 milyon dollar vəsaitin investisiya şəklində cəlb edilməsi, 82.7 milyon dollar vəsaitin isə birbaşa hökumət tərəfindən ayrılması planlaşdırılıb.

# Çin ABŞ-la razılaşdı: hücumların istiqaməti dəyişdi

## Çin hakerləri Vaşinqton və Pekin arasında əldə olunan razılaşmadan sonra hücumların istiqamətini Rusiya və başqa ölkələrə dəyişiblər

Analitiklərin araşdırmasına əsasən, Çin hakerləri tərəfindən ABŞ-a qarşı təşkil edilən kiberhücumların sayı son iki il ərzində 90 faiz azalıb. Ən böyük azalma Vaşinqton və Pekin arasında sazişin imzalanmasından sonra baş verib. ABŞ-ın Prezident Administrasiyasındakı yüksək vəzifəli mənbə bildirib ki, Vaşinqton Pekinlə razılaşmanın tam icrasını hələ tanımağa hazır deyil. Eyni zamanda bildirilib ki, «FireEye Inc» şirkətinin məruzəsi nəzərə alınacaq.

Analitiklər 2016-cı ildə Çin hakerlərinin ən azi iki hücumunu qeydə alıblar. Amma məruzədə qeyd edilir ki, informasiyaların oğurlanması barədə heç bir sübut yoxdur. Hücuma məruz qalan hər iki şirkət ABŞ hökuməti ilə müqavilələrlə bağlıdır. Eyni zamanda, məruzədə deyilir ki, Çin hökuməti tərəfindən dəstəklənən hakerlər Rusiya, Yaxın Şərq, Yaponiya və Cənubi Koreyada daha aktiv olublar.

Kibertəhlükəsizlik üzrə ixtisaslaşan başqa bir şirkət - «CrowdStrike» qeyd edir ki, Rusiya və Ukraynanın hərbi sirləri, Hindistanın siyasi qrupları və Monqolustanun mədənçıxarma sənayesi Çin hakerlərinin hədəfinə tuş gəlib. Həm «FireEye Inc», həm də «CrowdStrike» əmindirlər ki, hücumlar ya bilavasitə Çin hakimiyyəti tərəfindən, ya da Pekində işə götürülən podratçılar tərəfindən həyata keçirilib.

Çin hakerlərinin Rusiyanın hökumət strukturları və texnologiya şirkətlərinə, həmçinin Hindistan, Yaponiya və Cənubi Koreyaya qarşı hücumların artmasını «Kasperski laboratoriyaları» şirkətinin nümayəndəsi Kurt Baumqartner də təsdiq edib: «Mirage» və «APT 15» kimi məşhur olan qruplar ABŞ-ın energetika sektoruna öz hücumlarını dayandırıb və indi Rusiya ilə keçmiş sovet respublikaları hədəf olub».

krossvord



**Yuxarıdan aşağı:** 1.Qədim yunan mifologiyasında daşlarda, meşələrdə, bulaqlarda və s. yaşayan təbiət ilahələrindən biri; 2.Nəfəsli musiqi aləti; 3.Gürcüstanda çay; 4.ABŞ-ın şimal-qərbində şəhər; 5.Müəssisənin sahib olduğu bütün maddi mülkiyyəti əhatə edən anlayış, mühasibat termini; 6.Şabran rayonunun əvvəlki adı; 9.Azərbaycanın Ordubad rayonu ərazisində dağ; 13.Şərqi Göytürklərin üçüncü xaqanı; 15.Cənubi Amerikada dövlət; 16.Musiqi termini. Bir-birindən müəyyən intervalda yerləşən, eyni zaman ərzində ən azı üç həmahəng səs tonunun birləşməsi; 17.Dini etiqadlara görə, ölüm mələyi; 18.Plenar iclas; 20.Təkdırnaqlılar dəstəsindən otyeyən heyvan cinsi; 21.ABŞ yazıçısı və ədəbiyyat nəzəriyyəçisi. **Soldan sağa:** 1.Bəzək mütəxəssisi; 5.Qədim yunan mifologiyasında yeraltı dünyanın tanrısı; 7.İsmayıllı rayonunda kənd; 8.Tanınmış ABŞ ixtiraçısı və biznesmeninin adı. «Apple» şirkətinin yaradıcılarından biri; 10.Ötən əsrin 90-cı illərində məşhurlaşmış oyun konsolu; 11.Tanınmış Rusiya və sovet avanqardçı rəssamı. Pedaqoq, filosof və suprematizmin banisi. «Qara dördbucaq» abstrakt əsərinin müəllifi; 12.Yaponiyada bir neçə sahəni əhatə edən iri ticarət evi. «Azəri-Çıraq-Günəşli» neft yataqlarının işlənməsi layihəsində tərəfdaş şirkət; 14.Hər hansı bir şirkətin məhsullarını topdan alıb, sonradan pərakəndə və kiçik partiyalarla satılması ilə məşğul olan hüquqi və ya fiziki şəxs; 19.Kimyəvi reaksiyaların sürətləndirilməsi üçün əlavələr; 21.«Qaraca qız» filmində (1966) Tutu obrazını canlandıran aktrisanın adı; 22.Qədim Yunanıstanda xoş ətirli yağ və efirlər, həmçinin şərabı saxlamaq üçün xüsusi qab; 23.Əsasən palto və kostyum tikmək üçün keyfiyyətli yun parça növü; 24.Ordubad rayonunun Azadkənd kəndi yaxınlığında orta əsrlərə aid yaşayış yeri; 25.Tərsinə oxunuşu da eyni olan cümlə, söz və ədədlərə deyilir (məsələn: lal, ütü, iki, səs və s.).



*«Qara dördbucaq» abstrakt əsəri*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Rafael; 2.Havanna; 3.Tarar; 4.Lətifə; 5.Kvadrat; 6.Maqma; 7.Çingiz *(Aytmatov)*; 13.Elba; 15.Frikase; 16.Məscid; 17.Ariozo; 18.Puşkin; 20.Ənvər Çingizoğlu *(Fərəcov)*; 21.Tranş. **Soldan sağa:** 1.Rahat-lokum; 8.Favorit; 9.Arqon; 10.Elnur *(Məmmədli)*; 11.Ferrari; 12.Katet; 14.Ştift; 19.Ələkbər *(Məmmədov)*; 21.Taitu; 22.Civə; 23.Tomahavk; 24.Dar; 25.Kronşteyn.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 10000

idman

# Avropa çempionatında altı medal

Rumıniyanın paytaxtı Buxarest şəhərində güləş üzrə gənclər arasında Avropa çempionatına yekun vurulub. Azərbaycanın yığma komandası 2 qızıl və 4 bürünc medal qazanıb.

Qızıl medalları komandamıza Murad Süleymanov (74 kq) və Hacımurad Məhəmmədsəidov (84 kq) qazandırıb. Əliabbas Rzazadə (50 kq), Mahir Əmiraslanov (55 kq), Məhəmmədrəsul Qazıməhəmmədov (96 kq) və Alimaqomed Alixmoyev (120 kq) isə bürünc medala yiyələniblər.

Bu nəticə ilə yığmamız çempionatı komanda hesabında 55 xalla üçüncü pillədə tamamlayıb. 78 xal toplayan Rusiya millisi birinci olub, Gürcüstan isə 64 xal toplayaraq ikinci pillədə qərarlaşıb.

Xatırladaq ki, ötənilki analoji yarışda sərbəst güləşçilərimiz 1 qızıl və 3 bürünc medal qazanmışdı.



# Azərbaycan boksçuları «Rio-2016»da tam heyətlə çıxış edəcək

İyunun 16-dan 25-dək Bakının ev sahibliyi etdiyi və «Rio-2016» Olimpiya Oyunlarına lisenziya xarakterli boks üzrə dünya təsnifat turniri başa çatıb. Turnirin son günündə final qarşılaşmaları Azərbaycan yığmasının üzvləri üçün uğurla nəticələnib.

Həlledici döyüşə çıxan Azərbaycan millisinin üzvləri, Rüfət Hüseynov (49 kq) və Teymur Məmmədov (81 kq) yarışın qalibi adını qazanıblar. Digər atletimiz - 75 kiloqram çəki dərəcəsində mübarizə aparan Kamran Şahsuvarlı da lisenziya qazanıb. Bunun üçün Kamranın dörddəbir finalda uduzduğu Maykl Oreylli finalda türkmənistanlı Aslanbek Açilovu məğlub etməli idi. İlk «beşliy»in Rioya vəsiqə qazandığı çəki dərəcəsində çempion məhz Oreylli olub. Açilov Oreylli ilə həlledici qarşılaşmaya çıxmaqdan imtina edib və nəticədə Kamran Şahsuvarlı da Rio Olimpiadasına lisenziya əldə edib.



Beləliklə, Azərbaycanın kişilərdən ibarət boks üzrə milli komandası tarixdə ilk dəfə olaraq Olimpiadada tam heyətlə təmsil olunacaq. Xatırladaq ki, bunadək ən yüksək nəticə 12 il əvvəl Afina Yay Olimpiya Oyunlarında qeydə alınıb. Dəri əlcək ustalarımız həmin yarışda doqquz nəfərlə təmsil olunmuşdular. Hazırda isə Azərbaycan 10 çəki dərəcəsində təmsil olunacaq. Qadın boksunda yeganə lisenziyanı millimizə Anna Alekseyevna qazandırıb.

# Voleybolçularımız avroliqanın final mərhələsində

İyunun 26-da qadın voleybolçulardan ibarət Azərbaycan millisi Avropa Liqası yarışlarının yarımfinal mərhələsində cavab oyununu keçirib. Azərbaycan Voleybol Mərkəzində millimiz Yunanıstan yığması ilə qarşılaşıb. İtaliyalı baş hakim İlaria Vaqninin idarə etdiyi oyun millimizin 3:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Komandalar arasında bir gün əvvəl təşkil olunmuş ilk oyunda da Azərbaycan millisi 3:1 hesabı ilə qalib gəlmişdi. İki oyunun nəticəsinə görə, Azərbaycan voleybolçuları Avropa Liqası yarışlarının final mərhələsinə yüksəliblər. Həlledici mərhələdə millimizin rəqibi Slovakiya-Sloveniya görüşünün qalibi olacaq. Final mərhələsinin ilk görüşü iyunun 30-da, cavab qarşılaşması isə iyulun 7-də təşkil olunacaq.

Qeyd edək ki, Avropa Liqasının mahiyyətini artırmaq üçün bu ildən birinci yerin sahibi gələn il keçiriləcək Dünya Qran-prisinə vəsiqə qazanacaq. Hazırda millimizin heyətinə gənc oyunçular cəlb olunub. Əsas məqsəd Avropa Liqasının finalına yüksəlmək, gələn il IV İslam Həmrəylik Oyunlarında və paytaxtımızda keçiriləcək Avropa çempionatının final mərhələsində ölkəmizi layiqincə təmsil etməkdir.

# Lionel Messi milli komandaya «əlvida» dedi



Argentina yığmasının və İspaniyanın «Barselona» klubunun hücumçusu, dünya şöhrətli futbolçu Lionel Messi yığma komandadakı karyerasını başa vurduğunu açıqlayıb. Bu barədə ulduz futbolçu iyunun 27-də «Copa America 2016»nın finalında Çili millisinə məğlubiyyətdən sonra verdiyi açıqlamada bildirib: «Milli komandadakı karyeram bitdi. Bu, mənim yığma komanda ilə məğlub olduğum ümumilikdə dördüncü, ardıcıl isə üçüncü finaldır. Mən əlimdən gələni etdim, lakin finalda uduzmaq, xüsusilə də penaltilər seriyasında məğlub olmaq çox üzücüdür. Artıq qərarımı vermişəm».

Qeyd edək ki, heç-heçə başa çatan oyunsonrası penalti zərbələrindən komanda yoldaşı Lukas Bilya ilə birgə Leonel Messi də yararlana bilməmişdi.

mozaika

## Etibarsız mənbələri bloklayan qurğu yaradılıb

texnologiya

Mobil qurğunu ictimai yerlərdə və ya kənar kompüter vasitəsilə enerji ilə dolduran zaman onda saxlanılan informasiyanın başqalarının əlinə keçməyəcəyinə əmin olmaq qeyri-mümkündür. «Kasperski laboratoriyası» şirkətinin mühəndisləri belə düşünür.




İctimai enerji doldurma stansiyaları smartfon və ya planşetin akkumulyatorunu təcili enerji ilə doldurmaq zərurəti yarananda əvəzedilməzdir. Bununla belə, stansiyalar qurğulardan informasiya toplayaraq onlara zərərli proqram təminatı quraşdırmaqla məlumatların təhlükəsizliyi üçün ciddi təhdid yarada bilərlər. «Kasperski laboratoriyası» mühəndisləri smartfonun etibarsız mənbələrdən enerji ilə doldurulması zamanı fərdi informasiyanı mühafizə etməyə imkan verən xüsusi qurğu icad ediblər. USB toplayıcısına bənzər «Pure.Charger» qurğusu smartfonun enerji mənbəyinə qoşulması zamanı keçirici rolunu oynamaqla məlumatların ötürülməsini avtomatik bloklayır və yalnız elektrik enerjisinin ötürülməsinə imkan verir.

«Pure.Charger» yaradıcılarının fikrincə, məlumatların mühafizəsinə görə narahat olan istifadəçilər mükafatlandırılmalıdır. Belə ki, mobil qurğuların təhlükəsiz enerji ilə doldurulmasına görə onların hesabına ballar köçürüləcək ki, bunu da sonradan xüsusi mağazada xərcləmək mümkün olacaq.

## Mobil qurğular bədənin hərəkətindən enerji alacaq

Çin və ABŞ alimləri insanın hərəkətindən elektrik enerjisi hasil etməyə imkan verən elastik qurğu hazırlayıblar. Corciya Texnologiya İnstitutu, Sinxua Universiteti və Çin Elmlər Akademiyası əməkdaşlarının texnologiyasının əsasını elektrik enerjisini sürtünmə ilə mexaniki işdən hasil edən triboelektrik nanogeneratorlar təşkil edir. Əvvəllər hazırlanan oxşar qurğular sərt konstruksiyaya malik olduğuna görə iş üçün adi bədən hərəkətindən istifadə edə bilmirdilər. Alimlər bu problemi elektrod rolunda elastik polimerə doldurulmuş keçirici mayenin (xörək duzu məhlulu) çıxış etdiyi triboelektrik nanogeneratorlar hazırlamaqla aradan qaldırmağa nail olublar. Triboelektrik yükün sıxlığını və effektiv sahəni artırmaq üçün polimerin daxili səthi təxminən 50 nanometr diametrli çıxıntılarla örtülüb. Belə generator 300 faizədək gərilmədə effektiv işləyə bilir, yüksək elastiklik isə onu istənilən formaya salmağa imkan verir.

Mütəxəssislər ümid edirlər ki, onların icad etdiyi texnologiya əksər daşınan qurğularda tətbiq ediləcək. Tədqiqat rəhbəri Çjon Lin Vanqın fikrincə, texnologiyadan, məsələn, bionik protezlərdə ötürücülərin enerji ilə təmini üçün istifadə etmək mümkün olacaq.

## Kainatdan kainata açılan qapı

sensasiya

Portuqaliya alimlərinin iddiasına görə, qara dəliklər digər kainatlara açılan qapıdır. Kosmik obyekt dəliyə düşən kimi dərhal başqa bir məkana daxil olur. Əvvəllər iddia olunurdu ki, qara dəliklə yaxınlaşma zamanı, məsələn, kosmik gəmi bir daha geri qayıda bilməyəcək və kiçik hissəciklərə parçalanacaq.

Lakin alimlər sübut ediblər ki, qara dəlik başqa bir kainata keçiddir. Mütəxəssislərin hesabatında bu məsələ ətraflı izah edilir. Son kosmik kəşflər əsasında nisbilik nəzəriyyəsi də yenidən nəzərdən keçirilib. İndi məkan-zaman strukturu və cazibə qüvvəsi anlayışlarına alimlər başqa bucaq altında baxırlar. Hesabat müəlliflərinin sözlərinə görə, dəyişilmiş nisbilik nəzəriyyəsi tamamilə qeyri-ortodoksaldır və elmi ictimaiyyətin dəstəyini almaya bilər. Lakin onlar əmindirlər ki, obyektin qara dəlikdən keçən hissəcikləri bir-biri ilə əlaqəni itirmir və dağılmır, əksinə, oranı birbaşa keçir və başqa məkana daxil olurlar.

tarix

## Nadir sənədlər və tanış olmayan səhifələr

Azərbaycan Silahlı Qüvvələri Günü ərəfəsində «Sputnik Azərbaycan»ın mətbuat mərkəzində «Azərbaycan ordusunun yaranmasına dair nadir sənədlər və az məlum olan səhifələr» mövzusunda mətbuat konfransı keçirilib. Tədbirdə Əməkdar iincəsənət xadimi, sənədli filmlər rejissoru Ziya Şıxlinski Azərbaycan Milli Ordusunun yaradılmasına həsr olunmuş «Çətin günlərin xronikası» sənədli filminin çəkilişlərindən və həmin dövrün Silahlı Qüvvələrə aid az məlum olan sənədlərindən söhbət açıb.

Filmdə 1918-ci il hadisələrindən, Nuru Paşanın rəhbərliyi altında türk ordusunun Azərbaycanın köməyinə gəlməsindən söhbət açılır. Bildirilir ki, Birinci Dünya müharibəsi təzəcə qurtarmışdı, Rusiyada inqilabi hərəkat davam edirdi, cəbhədən qayıdan vəhşiləşmiş erməni dəstələri Bakının dinc əhalisinə divan tuturdular. Ermənilər həmin günlərdə Azərbaycanda 12 mindən çox adam öldürüblər. Türkiyə ordusu ölkədəki çətin vəziyyətə baxmayaraq, azərbaycanlı qardaşlarının köməyinə gəlib.

Filmdə nadir sənədlərdən istifadə edilib, tarixin açılmamış səhifələri işıqlandırılıb. Rejissorun sözlərinə görə, film Azərbaycan Milli Ordusunun yaradılmasının 95-ci ildönümünə həsr edilib. Film üzərində iş maraqlı olub, bəzi lazımi sənədlər Moskvada, Kinofotoarxivdə aşkar edilib.

Sənədli filmin əhəmiyyəti danılmazdır. Bu, həqiqəti dünyaya və gənc nəslə sənədlərin dili ilə çatdırmağa imkan yaradan canlı salnamədir. Ziya Şıxlinskinin film-portretləri İsmayıl Şıxlı, İmran Qasımov, Yusif Məmmədəliyev, Əliş Ləmbəranski və digər görkəmli şəxsiyyətlərə həsr olunub.

## Aldığımız nəfəs

ekologiya

Dünya Səhiyyə Təşkilatı (DST) inkişaf etməmiş ölkələrdə havanın tədqiqi nəticələrini açıqlayıb. Bu nəticələrə görə, az inkişaf etmiş ölkələrin böyük şəhərlərində 2 faiz istisna olmaqla havanın təmizliyi DST standartlarına uyğun gəlmir. Böyük şəhərlərdə əhalinin 80 faizi tərkibində tüstü və zəhərli qazlar qarışığı olan çirkli hava ilə nəfəs alır.

Dünya Səhiyyə Təşkilatı yanında ictimai sağlamlıq departamentinin rəhbəri Mariya Neyra sənayenin inkişafı və texniki tərəqqi ilə əlaqədar havanın və ətraf mühitin ümumi çirklənməsinin artdığını bəyan edib. Onun sözlərinə görə, bəşəriyyət günbəgün öz sağlamlığına daha çox və əsasən də bərpa edilməyən zərər vurur. Son vaxtlar inkişaf etmiş sənayeyə malik şəhərlərin administrasiyası bu problemə daha çox diqqət ayırmağa çalışır. Əgər onlar vəziyyəti yaxşı tərəfə dəyişə bilsələr, onda adamlarda daxili orqanların qorxulu xəstəlikləri xeyli azalacaq. Bütün müəssisələr mütləq qaydada öz təmizləmə sistemlərini effektiv filtrlərlə təchiz etməli, şəhər və şəxsi nəqliyyat isə ekoloji təmiz yanacağa keçməlidir. Bu cür tədbirlər yaxın illərdə şəhərlərdə ekoloji, xüsusilə hava ilə bağlı vəziyyəti yolverilən çərçivəyə sala bilər. Dünya Səhiyyə Təşkilatı beş il ərzində böyük şəhərlərdə apardığı hava tədqiqatlarını dərc edib.




Mütəxəssislər müxtəlif inkişaf səviyyəsinə malik 70-dək ölkədə vəziyyəti öyrəniblər, havanın çirklənmə dərəcəsi təxminən 800 şəhərdə araşdırılıb. Bu işin yekunundan görünür ki, inkişaf etmiş ölkələrdə ekoloji vəziyyət xeyli yaxşıdır. Ən pis göstəricilər Şərqi Aralıq dənizi və Cənub-Şərqi Asiya ölkələrində qeydə alınıb. Bu ölkələrdə ekologiya normaları 5-10 dəfə pozulub. Nigeriya, Hindistan, Pakistan və Səudiyyə Ərəbistanı çirklənmə dərəcəsinə görə «liderlik» edir. Dünyanın ən təmiz şəhərləri isə Amerika, İspaniya və Kanadanın dağlıq yerlərinin kiçik şəhərləridir. Finlandiyanın bir neçə rayonunun sakinləri də rahat yaşaya bilərlər.

### Müdriklər deyib ki...

*«Həyatda daim həqiqəti müdafiə et! Təqdir edən olmasa belə, vicdanına hesabat verməkdən qurtularsan».*

*Çe Qevara (1928-1967)*

